Azərbaycan İlahiyyat İnstitutu

# Bülleten

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 5
yanvar-iyun
2022



Heydər Əliyevin 99-cu ildönümünə həsr edilmiş tədbir
səh.33

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEV AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN YENİ İNZİBATİ BİNASININ AÇILIŞINDA İŞTİRAK EDİB

səh.22





Özbək tələbələr dərslərdə iştirak ediblər
səh.24

## Azərbaycan İlahiyyat İnstitutu kollektivinin Prezident cənab İlham Əliyevə Müraciəti

səh.25



AİI rektoru gənclərlə görüşüb
səh.17



İlahiyyat İnstitutu Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Türkiyədə anım tədbirləri keçirib
səh.9




səh.6
AİI-nin fəaliyyətinin 4 ili tamam oldu



Qazaxıstanlı tələbələr İlahiyyat İnstitutunda
səh.16

"Milli-mənəvi və mədəni irsimizin təşəkkülündə Şuşa" mövzusunda respublika elmi konfransı keçirilib
səh.31-32



Azərbaycanda dini təhsil – mövcud durum və vəzifələr
səh.46-47

# Qış imtahan sessiyası

Azərbaycan İlahiyyat İnstitutunda 5 yanvar 2022-ci il tarixdə bakalavriat və magistratura səviyyələri üzrə payız semestrinin qış imtahan sessiyası başlayıb. Dörd həftə davam etmiş sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq, iki növbə şəklində təşkil olunub. İmtahanlar əyani formada, yazılı, zəruri hallarda isə şifahi formada keçirilib.

İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, sualların tərtibi, tələbələrin biliklərinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması, sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə ali təhsil müəssisəsində Qərargah və onun nəzdində Apellyasiya Komissiyası yaradılıb.

Qeyd edək ki, imtahanların keçirilməsi zamanı "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs tərəfindən hazırlanmış "İmtahanlar zamanı koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər"ə riayət olunur. Həmçinin, Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na əməl edilir.



# "İlahiyyat" elmi-publisistik jurnalının növbəti buraxılışı

Azərbaycan İlahiyyat İnstitutunun "İlahiyyat" elmi-publisistik jurnalının növbəti – 5-ci buraxılışı işıq üzü görüb.

On bir rubrikadan ibarət olan buraxılışda öz sahəsinin peşəkar mütəxəssisi olan elm adamlarının, həmçinin Aİİ-nin tələbə və məzunlarının yazıları yer alıb.

Jurnalın budəfəki sayı "Rəsmi guşə" rubrikası ilə başlayır. Rubrikada "Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Şuşada hərbçilər qarşısında çıxışı" və "Birinci vitse-prezident Mehriban Əliyevanın Zəfər Günü münasibətilə xalqa təbriki" başlıqlı yazılar yer alıb.

"Təhsil" rubrikasında Aİİ rektoru Aqil Şirinovun "Dünyəvi dövlətdə din təhsili" sərlövhəli məqaləsi dərc edilib.

"Cəmiyyət və din" rubrikasında "Məhəmməd peyğəmbərin əxlaqı: bugündən baxış"; "Qlobal mənəvi böhran və İslamın dözümlülük anlayışı"; "Kərbəla"; "Azad təfəkkürün hekayəsi: İbrahim peyğəmbər" adlı məqalələr dərc olunub.

"Uşaqların dini təlim-tərbiyəsinin psixoloji aspektləri" başlıqlı məqalə jurnalın "Psixologiya" rubrikasında yer alıb.

"Müasir müəllimin fəaliyyətində yaradıcılıq amili"; "XX əsrdə din və maarifçilik", "Əndəlüsdə elm və onun Avropaya təsiri" sərlövhəli məqalələr "Tədris" rubrikasında dərc edilib.

"Erməni faşizmi"; "O payız nur yaydı aləmə"; "Keçdi xəyalımdan öz gözəl yurdum"; "Poladqəlbli, Mübarizbaxışlı Vüqar" mövzusunda yazılar "Vətənpərvərlik" rubrikasında yerləşdirilib.

"Dəyərlərimiz" rubrikasında "Din – mənəvi dəyər kimi" başlıqlı məqalə verilib.

"Fəlsəfə" rubrikasında "İslam fəlsəfəsinin müasir dövrdəki problemləri"; "İnsana üç fərqli baxış, yaxud ruh, zəka və bədənmərkəzlilik" başlıqlı məqalələr yer alıb.

"Azərbaycan və ərəb dilləri üzrə tərcümə: nəzəriyyə, təcrübə və problemlər"; "İslam nasist Almaniyasının siyasətində (1939-1945)" kitabının müəllifi ilə müsahibə"; "Nizami Gəncəvi yaradıcılığı: Azərbaycandan dünyaya doğan Günəş" sərlövhəli yazılar "Ədəbiyyat və tərcümə" rubrikasında dərc olunub.




Aİİ tələbələrinin "Allahın varlığına dair əxlaq dəlili"; "Quranda oruc ibadəti"; "Təvəkkül"; "Qədr gecəsi"; "İslam asanlıq dinidir"; "Quranda təkəbbür haqqında"; "Mömin kimə deyilir"; "Qurani-Kərimdə Qurban"; "İnfaq"; "Təqva"; "İslam qanunlarına görə evlilik" başlıqlı məqalələri jurnalın "Baxış bucağı" rubrikasında yer alıb.

"Pakistan-Azərbaycan dostluğunun tarixi" sərlövhəli yazı "Dostluq" rubrikasında dərc olunub.

Jurnalın sonuncu – "Düşüncələr" rubrikasında "Mənim Ana dilim, mənim can dilim" mövzusunda məqalə verilib.

# "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun materialları nəşr olunub

Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi (IRCICA) və AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə Bakıda təşkil olunan "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun materialları çapdan çıxıb.

İki cilddən ibarət olan kitab Bakıda keçirilən "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun materiallarını, İslam sivilizasiyasının təşəkkül və inkişafına dair məruzələri ehtiva edir. Simpoziumda 100-dən çox məruzəçi 11 paneldə – "Qafqazda İslamın yayılması", "İslam mədəniyyətinin Qafqazda dini və ictimai-mədəni həyata təsiri", "Qafqazda İslam elmlərinin inkişafı", "Qafqazda İslam incəsənəti, memarlığı və ədəbiyyatı", "Qafqazda multikulturalizm", "Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu", "Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu", "Çar Rusiyasının Qafqazda İslam siyasəti", "Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu" mövzularında panellərdə çıxış edib.

Qeyd edək ki, İslamın Qafqazda yaşayan xalqların həyatındakı tarixi rolu və əhəmiyyətinə dərindən bələd olan ümummilli lider Heydər Əliyevin birbaşa təşəbbüsü və iştirakı ilə 1998-ci ilin 9-11 dekabr tarixlərində Bakıda keçirilən "İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumu yenidən – 11-12 iyun 2019-cu il tarixdə keçirilib. Simpoziumun qarşısında duran əsas məqsəd Azərbaycan mədəniyyətinin əhəmiyyətini, onun mədəniyyətlərin kəsişməsindəki mövqeyini və mühüm cəhətlərini müzakirə obyektinə çevirməkdən ibarət olub.



# Beynəlxalq indeksli jurnalda məqalə dərc olunub




Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) Dinşünaslıq kafedrasının müdiri, dosent Anar Qafarovun Türkiyə Respublikası Atatürk Universitetinin beynəlxalq indeksli (Web of Science/ESCI) "İlahiyat tetkikleri" adlı impakt faktorlu jurnalının 31 dekabr 2021-ci il sayında "Felsefo kelvm ve ahlvk felsefesi bağlamında kötülük problemi: Nasorüddin Tıso merkezli bir analiz" sərlövhəli məqaləsi nəşr olunub.

A.Qafarov sözügedən məqalədə bəşəriyyətdə mövcud olan şər problemini ədalətli Tanrı təsəvvürü ilə analitik şəkildə müzakirə obyektinə çevirib. Nəsirəddin Tusinin fəlsəfədə şər probleminə dair yanaşmalarını nəzərə alaraq təhlil və tənqidi şəkildə izah etməyə çalışıb. Yazıda N.Tusinin fəlsəfi düşüncələri nümunəsində Orta əsr İslam fəlsəfi fikrində şər problemi Tanrının ədalətli olduğuna dair konsepsiya ilə uzlaşdırılaraq təhlil edilir, eyni zamanda, fəlsəfi, teoloji və etik aspektlərdən əsaslandırılır.

Qeyd edək ki, dosent A.Qafarovun fəlsəfə, teologiya və etikaya dair ölkədaxili və xaricdə tək və həmmüəllifli olaraq bir çox əsəri mövcuddur. Həmçinin o, beynəlxalq nüfuzlu bir neçə elmi jurnalın redaksiya heyətinin üzvüdür.


Felsefi Kelam ve Ahlâk Felsefesi Bağlamında Kötülük Problemi: Nasiruddin Tûsi Merkezli Bir Analiz

The Evil Problem in the Context of Philosophical Theolohy and Ethich: An Analysis Centered on Nasr ad-Din Tusi

Anar GAFAROV

ORCID ID: 0000-0002-3115-1287

Makale Bilgisi | Article Information

Makale Türü / Article Type: Araştırma Makalesi / Research Article

Geliş Tarihi / Date Received: 29 Temmuz / July 2021

Kabul Tarihi / Date Accepted: 29 Ekim / October 2021

Yayın Tarihi / Date Published: 31 Aralık / December 2021

Yayın Sezonu / Pub Date Season: Aralık / December

DOI: 10.29288/ilted.976181

# "Mənəvi dəyərlər və milli kimlik" mövzusunda tədbir keçirilib

"Müasir İnkişaf" İctimai Birliyinin və Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə icra edilən "Mənəvi dəyərlərimizi yaşadaq və



təbliğ edək" layihəsi üzrə 14 yanvar 2022-ci il tarixdə "Mənəvi dəyərlər və milli kimlik" mövzusunda tədbir keçirilib.

"Müasir İnkişaf" İctimai Birliyinin sədri, AMEA-nın şöbə müdiri Mübariz Göyüşlü təmsil etdiyi qurumun fəaliyyətindən, tədbirlərindən, layihələrindən, nəşrlərindən və s. söz açıb. O, "Mənəvi dəyərlərimizi yaşadaq və təbliğ edək" layihəsi çərçivəsində görülmüş işlərdən bəhs edib. Prosesin artıq başa çatmaq üzrə olduğunu, hazırda "Azərbaycan mənəvi dəyərləri" başlıqlı kitab üzərində iş getdiyini deyib.

AİI rektoru, dosent Aqil Şirinov dinin mənəvi dəyərlərin, o cümlədən milli kimliyin komponentlərindən biri olduğunu vurğulayıb. A.Şirinov dinin birləşdirici funksiyası olduğunu xatırladıb. Rektor sovet dövründə dinə vurulan zərbələrdən də söz açıb. O, dinə, mənəvi dəyərlərə kənardan edilən yad təsirlərə qarşı mübarizə aparmağın zəruri olduğunu qeyd edib.

Mədəni Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov dəyərlər termininin və mövzusunun təhlilini verib. O, Qərbin dəyərlərimizə təsirindən danışıb. M.İsmayılov tədbir iştirakçılarının müxtəlif sahələrin təmsilçiləri olmasını nəzərə alaraq prosesə yanaşmanın maraqlı olacağını açıqlayıb.

AMEA Tarix İnstitutunun şöbə müdiri, tarixçi alim Hacı Həsənov Azərbaycan xalqının mənəvi dəyərlərini, milli kimliyini qoruyub saxladığını qeyd edib. Alim buna misal olaraq 44 günlük Vətən müharibəsini göstərib. H.Həsənov təklif edib ki, mənəvi dəyərlər təhsil müəssisələrində tədris edilsin.

ADPU-nun dosenti, AMEA Tarix İnstitutunun əməkdaşı Mübariz Ağalarlı milli-mənəvi dəyərlərin təhlükəsizlik məsələsi olduğunu



qeyd edib. O, tarixdə və müasir dövrdə bu dəyərlərə olan baxışı təhlil edib. Klassiklərin mövzuya konseptual yanaşma sərgilədiyini deyən çıxışçı bu gün də eyni yanaşma göstərilməsinin vacib olduğunu vurğulayıb.

AİI Dinşünaslıq kafedrasının müdiri, dosent Anar Qafarov dəyərlər haqqında fikirlərini bildirib. O, Vətən coğrafiyası haqqında danışaraq, mədəniyyətlərin bir-birinə təsirinin təhlilini verib.

AMEA Ədəbiyyat İnstitutunun məsul katibi, dosent Aygün Bağırlı dəyərlər mövzusunun ədəbiyyatda, dastanlarımızda, atalar sözlərində, şeirlərdə əks olunduğuna toxunub. "Nizami Gəncəvi milli kimliyimizn simvoludur" deyən A.Bağırlı həmin dövrdən etibarən şair və yazıçıların mənəvi dəyərlərlə bağlı yaradıcılığını qısa şəkildə təqdim edib.

AMEA Fəlsəfə İnstitutunun şöbə müdiri Məhəmməd Cəbrayılov qlobal məkanda mənəvi dəyərləri qorumağın çətinliyindən danışıb. O, Azərbaycanın dövlət siyasəti olan multikulturalizmdən bəhs edib. M.Cəbrayılov multikulturalizmin dövlət siyasəti olmasının önəmindən və faydalarından da söz açıb.

AİI İslamşünaslıq kafedrasının müdiri, ilahiyyat üzrə fəlsəfə doktoru Əhməd Niyazov insan şəxsiyyətindən və ünsiyyətin önəmindən bəhs edib. Ə.Niyazov İslam dinində insana verilən nəsihətlərdən də söz açıb.

AİI-nin müəllimi, i.f.d. Vüqar Səmədov çıxışında Allaha inamın əhəmiyyətindən bəhs edib. V.Səmədov şəhidlər, qazilərlə bağlı İslam dinində buyurulanları tədbir iştirakçıları ilə bölüşüb.

ADPU-nun tələbəsi Anar Salehoğlu milli-mənəvi dəyərləri gənclər arasında təbliğ etməyin əhəmiyyətindən danışıb.

Sonda belə tədbirlərin davamlı şəkildə keçirilməsinin, ziyalılarla birgə ictimai, ideoloji, tarixi, ədəbi, dini mövzuların müzakirəsinin təşkilinin zəruriliyi vurğulanıb.

# 20 Yanvar şəhidlərinin xatirəsi anılıb

Azərbaycan İlahiyyat İnstitutunda 20 Yanvar – Ümumxalq Hüzn Gününə həsr olunmuş tədbir keçirilib.

Faciə zamanı qətlə yetirilmiş insanların əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Mərasimi giriş nitqi ilə açan İnstitutun rektoru Aqil Şirinov 1990-cı ilin yanvarın 20-də, həmçinin Vətən müharibəsində şəhid olanların ruhuna rəhmət, yaralılara Allahdan şəfa diləyib.



Aİİ rəhbəri daha sonra Azərbaycan xalqının mübariz və qəhrəman olduğunu qeyd edib. Azadlıq mübarizəsinin ən bariz nümunəsi olan həmin gecə yaşananlar barədə ətraflı danışan rektor faciəli günlərdə Azərbaycan xalqının haqq səsini Moskvadan bütün dünyaya çatdıran ümummilli lider Heydər Əliyevin xüsusi xidmətlərini vurğulayıb. Bildirib ki, 20 Yanvar hadisələri zamanında olduğu kimi 44 günlük Vətən Müharibəsində də xalqımızın birlik ruhunun, bir yumruq kimi birləşməsinin şahidi olduq.

A.Şirinov vurğulayıb ki, itirilən torpaqlarımız Ali Baş Komandan İlham Əliyevin və Müzəffər Ordumuzun səyi nəticəsində geri qaytarıldı. Rektor bildirib ki, torpaqlarımızın işğaldan azad olunması uğrunda dəmir yumruq kimi birləşdiyimiz kimi, bundan sonra da ölkəmizin inkişafı, daha da çiçəklənməsi naminə bir olmalıyıq.

Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov çıxış edərək bildirib ki, 20 Yanvar Azərbaycan xalqının taleyində və tarixində həm faciəli, həm də ibrətamiz hadisədir.

Millət vəkili qeyd edib ki, tarixin ayrı-ayrı dövrlərində Azərbaycanın müxtəlif bölgələrindən torpaqlar, yaşayış məntəqələri zorla qoparılaraq Ermənistana verilib. Bununla da imperiyanın kimi müdafiə etdiyi məlum olub.

1990-cı ilin yanvarın 20-də əliyalın kütlə küçələrə çıxaraq bu siyasətə etiraz edir, öz haqqını tələb edirdi. Həmin gecə əhaliyə qarşı törədilən amansız qətliamdan sonra xalqımız dərk etdi ki, bu imperiya və ordu bizim deyildir. Bu mənada, 20 Yanvarın ibrət dərsləri itirdiklərimizdən daha çox oldu.



Professor Anar İsgəndərov daha sonra vurğulayıb ki, 44 günlük Vətən Müharibəsində Azərbaycan xalqı "Dəmir Yumruq"a çevrildi, ərazi bütövlüyümüz, suverenliyimiz bərpa olundu. Torpaqlarımız azad olunduqdan sonra, 20 Yanvar şəhidlərinin ruhunu yad etmək üçün Şəhidlər Xiyabanına gedəndə qürur, fərəh hissi keçirir, başımızı dik tuturuq.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunun kollektivi Şəhidlər xiyabanını ziyarət edib.

# Qış imtahan sessiyası başa çatıb

Azərbaycan İlahiyyat İnstitutunda 2021-2022-ci tədris ilinin bakalavriat və magistratura səviyyələri üzrə payız semestrinin qış imtahan sessiyası sona çatıb. Dörd həftə davam edən sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq, əyani formada şifahi, ehtiyac olduğu təqdirdə, yazılı formada keçirilib.

Ali təhsil müəssisəsində xüsusi karantin rejiminin tələblərini, eyni zamanda, "İmtahanlar zamanı koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər"i nəzərə alaraq, sessiyada tələbələrin bilik və bacarıqlarını göstərmələri üçün lazımi şərait yaradılıb.

İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, sualların tərtibi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması, imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə ali təhsil müəssisəsində Qərargah və onun nəzdində Apellyasiya Komissiyası yaradılıb. Qərargah mövcud şəraitə uyğun olaraq fəaliyyət göstərib. Daxil olan müraciətlər, şikayətlər qısa müddətdə çevik şəkildə araşdırılaraq, lazımi tədbirlər görülüb.

İmtahan sessiyasının gedişatı İlahiyyat fakültəsinin dekanlığı, Tədris şöbəsi və aidiyyəti kafedralar tərəfindən izlənilib.

Qeyd edək ki, imtahan sessiyası müddətində əldə etdikləri nəticələrə (ÜOMG-yə) əsasən təhsilalanlara tələbə təqaüdü ilə yanaşı, AİI-də təsis olunmuş Heydər Əliyev adına, QMİ-nin təsis etdiyi Şeyxülislam adına və akademik Vasim Məmmədəliyev adına təqaüdlər veriləcək.

# AİI-nin fəaliyyətinin 4 ili tamam oldu



Azərbaycan İlahiyyat İnstitutunda 9 fevral 2022-ci il tarixdə ali təhsil müəssisəsinin dördillik fəaliyyətinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdən öncə İnstitutun rəhbər heyəti Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə AİI-nin rektoru Aqil Şirinov çıxış edərək, İnstitutun dördillik fəaliyyəti barədə məlumat verib. Bildirib ki, ölkədə yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını qarşısına məqsəd qoyan İnstitut qısa zamanda bir sıra nailiyyətlər əldə edib.



İnstitutun məqsəd və hədəflərindən danışan rektor bildirib ki, ali təhsil müəssisəsində bu il ilk dəfə məzun buraxılışı həyata keçiriləcək: “Hər birimiz çalışmalıyıq ki, məzun olacaq gənclərimiz savadlı, yüksək intellektə, geniş dünyagörüşünə malik, sağlamdüşüncəli, Vətənini sevən mütəxəssislər olsunlar”.

Tələbələrin həm akademik, həm də şəxsi inkişafına töhfə vermək məqsədilə İnstitutda müxtəlif kurslar həyata keçirildiyini diqqətə çatdıran A.Şirinov, həmçinin gələcək layihələr haqqında da məlumat verib. İnstitutun fəaliyyətinin daha səmərəli təşkili üçün kollektivin birgə əməyini yüksək qiymətləndirib.

AİI rəhbəri İnstitutda tədrislə yanaşı, tədqiqat sahəsində də bir çox işlərin görüldüyünü vurğulayıb. Qeyd edib ki, ildə iki dəfə elmi jurnalımız, il ərzində müəllimlərimizin araşdırma əsərləri çap olunur. Bu əsərlərin bir çoxu yeni tədqiqat nümunələridir. Həmçinin müəllimlərimizin elmi məqalələri “Web of Science” və “Scopus” başda olmaqla nüfuzlu platformalara daxil olan beynəlxalq jurnallarda dərc olunur.

İnstitutda tədrisin daha da təkmilləşdirilməsinə xüsusi önəm verildiyini qeyd edən A.Şirinov bu məqsədlə müxtəlif qabaqcıl xarici ölkə universitetləri ilə əlaqələrin qurulduğunu nəzərə çatdırıb. İnstitutda bu semsetrdən ingilisdilli bölmənin açılacağını, Qazaxıstanda fəaliyyət göstərən Nur-Mübarək Universitetinin iki tələbəsinin AİI-də təhsillərini davam etdirəcəklərini vurğulayıb.




AİI-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Mübariz Camalov da kollektivə dördillik fəaliyyəti ilə bağlı təbriklərini çatdırıb. Tədrisin daha da təkmilləşdirilməsi, tələbələrin savadlı, yüksəkixtisaslı kadr kimi yetişməsi üçün qarşıda duran hədəfləri diqqətə çatdırıb.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov İnstitutun səmərəli dördillik fəaliyyəti ilə əlaqədar kollektivi təbrik edib. Kollektivin birgə əməyi nəticəsində qarşıda duran məqsəd və hədəflərə tez bir zamanda nail olacaqlarını qeyd edib.

AİI-nin digər rəhbər şəxsləri və əməkdaşları da dördillik fəaliyyətlə bağlı kollektivi təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində təsis edilib.

# QIŞ İMTAHAN SESSİYASININ NƏTİCƏLƏRİNƏ DAİR İCLAS

Azərbaycan İlahiyyat İnstitutunda 16 fevral 2022-ci il tarixdə payız semestri qış imtahan sessiyasının nəticələri ilə bağlı iclas keçirilib.

AİÎ rektoru Aqil Şirinov iclas iştirakçılarını salamladıqdan sonra, gündəlikdə olan məsələlər barədə məlumat verib.



AİÎ-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Mübariz Camalov imtahan sessiyasının nəticələri, qarşıya çıxan problemlər haqqında geniş məlumat verib, sözügedən məsələlərin həlli üçün təkliflərini səsləndirib.



Elm və innovasiyalar üzrə prorektor Mirniyaz Mürsəlov imtahanlar zamanı şahidi olduğu bir sıra məsələlərə toxunub. Bildirib ki, ümumilikdə imtahanları nəticələrini qənaətbəxş hesab etmək olar.

İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova tə-



qaüd alacaq tələbələr haqqında məlumat verib, təkrar imtahanların uğurla başa çatdığını qeyd edib.

Tədris şöbəsinin müdiri Zərifə Əliyeva imtahan prosesi zamanı yaranan nöqsanlardan, imtahanların nəticələrindən, Operativ Qərargaha daxil olan təklif



və şikayətlərdən söz açıb.

Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova magistrantlar və doktorantlar barədə məlumat verib.

Ali təhsil müəssisəsinin rəhbəri Aqil Şirinov çıxış edənləri dinlədikdən sonra, qeyd edilən məsələlər barədə fikirlərini bölüşüb. İmtahanların obyektiv keçirildiyini, tələbələr tərəfindən daxil olan müraciətlərə həssaslıqla yanaşıldığını, onların təklif və şikayətlərinin dinlənildiyini vurğulayıb.

İclas müzakirələrlə davam edib.

## REKTOR TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜB

Azərbaycan İlahiyyat İnstitutunun IV kurs tələbələrindən bir qrupu məscidlərdə təcrübə keçəcək.

Təcrübə keçəcək tələbələrlə 22 fevral 2022-ci il tarixdə görüşən AİÎ rektoru Aqil Şirinov təhsilalanlara uğurlar arzulayıb. Ali təhsil müəssisəsinin rəhbəri əsas məqsədin yüksək intellektə, geniş dünyagörüşünə malik, sağlamdüşüncəli, Vətənini sevən mütəxəssislər hazırlamaq olduğunu qeyd edib.

İnstitutun dövlətin diqqət və qayğısı ilə tam əhatə olunduğunu diqqətə çatdıran rektor vurğulayıb ki, tələbələrimiz bu imkanlardan istifadə etməli, biliklərini təkmilləşdirərək yüksəkixtisaslı kadrlar kimi yetişməlidirlər.

A.Şirinov daha sonra bildirib ki, tələbələr ölkəmizin inkişafı, daha da çiçəklənməsi naminə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməli, milli-mənəvi dəyərlərimizi birləşdirici ünsür olaraq cəmiyyətə təbliğ etməlidirlər.

Daha sonra tələbələri maraqlandıran suallar ətrafında fikir müzakirəsi aparılıb.

Qeyd edək ki, AİÎ tələbələri bu il Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində və məscidlərdə təcrübə keçəcəklər.

# Xocalı soyqırımının 30-cu ildönümü anılıb

Azərbaycan İlahiyyat İnstitutunda 17 fevral 2022-ci il tarixdə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri təşkil olunub.

Tədbirdə AİI-nin nəşr etdirdiyi “Erməni Təcavüzünün Tanıdılması” İctimai Birliyinin sədri Səriyyə Cəfərovanın “Geriyə baxma” kitabının təqdimat mərasimi keçirilib.

Əvvəlcə Xocalı şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik ehtiram sükutu ilə anılıb.

Ali təhsil müəssisəsinin rektoru Aqil Şirinov çıxış edərək, öncə Xocavənd rayonunun Qaradağlı kəndində ermənilərin törətdiyi soyqırımı qurbanlarının xatirəsini yad edib.

Daha sonra A.Şirinov fevralın 25-dən 26-na keçən gecə baş vermiş qətliamın dünyada görünməyən ən dəhşətli soyqırımlarından biri olduğunu, bu günlərdə Xocalı sakinlərinin xüsus`i amansızlıqla öldürüldüklərini qeyd edib. Bildirib ki, Xocalı soyqırımına dünya səviyyəsində hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar.

AİI rəhbəri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Xocalı soyqırımının otuzuncu ildönümü haqqında Sərəncamına diqqət çəkərək qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutu da faciənin tanıdılması məqsədilə silsilə tədbirlər həyata keçirəcək.




A.Şirinov daha sonra bildirib ki, xalqımız 44 günlük Vətən müharibəsi zamanı işğal altında olan torpaqlarını azad edərək, erməni faşistlərinə layiqli cavabını verib.

Vətən müharibəsinin davam etdiyi günlərdən bəhs edən A.Şirinov ermənilərin məkrli siyasətindən də danışıb. Rektor günahsız, dinc əhaliyə qarşı Bərdədə, Gəncədə törədilən terror aktlarına diqqət çəkib.





Daha sonra “Geriyə baxma” kitabının müəllifi Səriyyə Cəfərova çıxış edib. Kitab haqqında geniş məlumat verən S.Cəfərova bildirib ki, əsər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni vandalları tərəfindən törədilmiş Xocalı soyqırımından bəhs edir. Soyqırımı zamanı 613 nəfər şəhid olmuşdur – onlardan 70 nəfəri ahıldır. Müəllif vurğulayıb ki, bu insanların faciəli həyatı kitabda öz əksini tapıb.




Tədbirdə Xankəndi Məcburi Köçkünlərə Sosial Dəstək İctimai Birliyinin sədri Xatirə Vəliyeva çıxış edərək, xatirələrini bölüşüb.

Sonda Xətai rayonu şəhid Asəf Ağayev adına 25 saylı orta məktəbin şagirdləri çıxış edərək, Xocalıya aid şeirlər səsləndiriblər.

# İlahiyyat İnstitutu Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Türkiyədə anım tədbirləri keçirib

Türkiyənin İstanbul şəhərində Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar silsilə anım tədbirləri keçirilir.

İstanbul Universitetində Azərbaycan İlahiyyat İnstitutu, İstanbul Universiteti Ədəbiyyat fakültəsi, Türk Ocaqları İstanbul Şöbəsi və "Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyinin birgə təşkilatçılığı ilə baş tutan ilk tədbirdə ali təhsil müəssisəsinin nəşr etdirdiyi "Geriyə baxma" kitabının təqdimat mərasimi təşkil olunub.

Öncə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib, Azərbaycan və Türkiyə respublikalarının dövlət himnləri səsləndirilib.

Tədbirdə giriş nitqi ilə çıxış edən İstanbul Universiteti Ədəbiyyat fakültəsinin tarix bölüm başqanı, prof. Fatih M. Sancaktar Xocalı soyqırımından bəhs edib. F.Sancaktar soyqırımında yüzlərlə günahsız insanın ermənilər tərəfindən xüsusi amansızlıqla qətlə yetirildiyini xatırladıb. Qeyd edib ki, Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməli, beynəlxalq təşkilatlar, dünya dövlətləri təcavüzkarın Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə – Xocalı soyqırımına beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov tarixboyu ermənilərin türk-müsəlman əhalisinə qarşı düşmən münasibətində olduqlarını diqqətə çatdırıb. O qeyd edib ki, Xocalıda baş vermiş qətliam təsadüf deyil, məhz bilərəkdən və düşünülmüş şəkildə həyata keçirilib. Daha sonra bildirib ki, beynəlxalq səviyyədə qəbul edilmiş normativlər deməyə əsas verir ki, Xocalı hadisələri Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı aktıdır.

Türk Ocaqları İstanbul Şöbəsinin müdiri Cezmi Bayram Xocalı soyqırımını ermənilərin tarixboyu törətdikləri ən böyük vəhşilik kimi dəyərləndirib. Bildirib ki, həmin gecə Xocalıda yaşayan yerli əhali vəhşicəsinə qətlə yetirilib. Cezmi Bayram bu qanlı hadisənin dünya miqyasında tanıdılmasının vacibliyini vurğulayıb.

"Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyinin sədri Səriyyə Cəfərova tədbirdə çıxış edərək, müəllifi olduğu "Geriyə baxma" kitabı haqqında məlumat verib. Qeyd edib ki, əsər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni vandalları tərəfindən törədilmiş Xocalı soyqırımından bəhs edir. Soyqırımı zamanı 613 nəfər şəhid olmuşdur – onlardan 70 nəfəri ahıldır. Müəllif vurğulayıb ki, bu insanların faciəli həyatı kitabda öz əksini tapıb.

Tədbirdə "CNN Türk" televiziya kanalının hazırladığı "Qarabağ Azərbaycandır" sənədli filminin nümayişi olub.

***

Mehmet Akif Ersoy Sanat Mərkəzində Azərbaycan İlahiyyat İnstitutu, Türk Ocaqları İstanbul Şöbəsi, Türk Ocaqları Derneği Pendik Şöbəsi və "Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyinin birgə təşkilatçılığı ilə növbəti anım tədbiri baş tutub.

Anım mərasimində ali təhsil müəssisəsinin nəşr etdirdiyi "Geriyə baxma" kitabının təqdimat mərasimi təşkil olunub.

Öncə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib, Daha sonra Azərbaycan və Türkiyə respublikalarının dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən Türk Ocaqları Derneği Pendik Şöbəsinin müdiri Ahmet Kara Xocalı soyqırımının Türkiyədə böyük kədər, ümumxalq hüzn, yaddaşlardan silinməyən faciə kimi qəbul edildiyini diqqətə çatdırıb.

**(Ardı 10-cu səhifədə)**



# İlahiyyat İnstitutu Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Türkiyədə anım tədbirləri keçirib




(Əvvəli 9-cu səhifədə)

Qeyd edib ki, bu dərd bundan sonra da unudulmayacaq, insanlarımızın qəlbində yaşayacaq.

Aİİ-nin Elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov Xocalıda baş vermiş soyqırımı faktlarını diqqətə çatdırıb. İnsanların xüsusi amansızlıqlarla – qadın, qoca, uşaq demədən – qətlə yetirildiklərini bildirib. Vurğulayıb ki, tarixboyu ermənilər türk-müsəlman əhalisinə qarşı düşmən münasibətində olub. Xocalıda baş vermiş qətliamın təsadüf olmadığını vurğulayan prorektor bildirib ki, beynəlxalq səviyyədə qəbul edilmiş normativlər deməyə əsas verir ki, Xocalı hadisələri Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı aktıdır.

Türk Ocaqları İstanbul Şöbəsinin müdiri Cezmi Bayram tarixboyu ermənilərin türk millətinə və Azərbaycan torpaqlarında dinc əhaliyə qarşı törətdikləri ardıcıl və düşünülmüş soyqırımı siyasəti, həmçinin Xocalı faciəsi haqqında bəhs edib. Cezmi Bayram bu qanlı hadisənin dünya miqyasında tanıdılmasının vacibliyini vurğulayıb.

"Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyinin sədri Səriyyə Cəfərova tədbirdə çıxış edərək, müəllifi olduğu "Geriyə baxma" kitabı haqqında məlumat verib. Qeyd edib ki, əsər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni vandalları tərəfindən törədilmiş Xocalı soyqırımından bəhs edir. Soyqırımı zamanı 613 nəfər şəhid olmuşdur – onlardan 70 nəfəri ahıldır. Müəllif vurğulayıb ki, bu insanların faciəli həyatı kitabda öz əksini tapıb.

Tədbirdə "CNN Türk" televiziya kanalının hazırladığı "Qarabağ Azərbaycandır" sənədli filminin nümayişi olub.

***

Türkiyənin Marmara Universitetində baş tutan sonuncu tədbir Azərbaycan İlahiyyat İnstitutu, Marmara Universiteti İlahiyyat fakültəsi, Türk Ocaqları İstanbul Şöbəsi və "Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Anım mərasimində ali təhsil müəssisəsinin nəşr etdirdiyi "Geriyə baxma" kitabının təqdimat mərasimi olub.

Öncə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra Azərbaycan və Türkiyə respublikalarının dövlət himnləri səsləndirilib.

Marmara Universiteti İlahiyyat fakültəsinin dosenti Osman Aydınlının moderatorluğu ilə baş tutan anım tədbirində Marmara Universiteti İlahiyyat fakültəsinin dekanı, professor İsmail Safa Üstün çıxış edib. Bildirib ki, Xocalı soyqırımı Türkiyədə böyük kədər, ümumxalq hüzn, yaddaşlardan silinməyən faciə kimi qəbul edilir. Xocalıda köməksiz insanlara qarşı açıq-aşkar şəkildə cinayət törədildiyini diqqətə çatdıran professor vurğulayıb ki, bu soyqırımı aktı bütün dünyaya tanıdılmalı, bu vandalizmi törədənlər Beynəlxalq Ədalət Məhkəməsinə çıxarılaraq məsuliyyətə cəlb olunmalıdırlar.

Aİİ-nin Elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov



Xocalıda baş vermiş soyqırımı faktlarını diqqətə çatdırıb.

M.Mürsəlov daha sonra Azərbaycanın 44 günlük Vətən müharibəsi və müharibə nəticəsində əldə edilən tarixi Zəfər haqqında danışıb. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz işğal altında olan torpaqlarımızı geri qaytarmaqla düşmənə layiq olduğu cavabı verib. M.Mürsəlov Türkiyə dövlətinə və xalqına 44 günlük Vətən müharibəsi zamanı göstərdikləri mənəvi dəstəyə görə minnətdarlığını bildirib. Prorektor Aİİ-nin nəşr etdirdiyi "Geriya baxma" kitabı haqqında məlumat verərək, əsərin Xocalı soyqırımından bəhs etdiyini bildirib.

Türk Ocaqları İstanbul Şöbəsinin müdiri Cezmi Bayram Xocalı faciəsi haqqında danışıb. Bildirib ki, tarixboyu ermənilər türk millətinə və Azərbaycan torpaqlarında dinc əhaliyə qarşı ardıcıl və düşünülmüş soyqırımı aktları həyata keçiriblər.

Cezmi Bayram bu qanlı hadisənin dünya miqyasında tanıdılmasının vacibliyini vurğulayıb.

Tədbirdə "CNN Türk" televiziya kanalının hazırladığı "Qarabağ Azərbaycandır" sənədli filminin nümayişi olub.

# "Din araşdırmaları" jurnalının növbəti sayı dərc olunub

Azərbaycan İlahiyyat İnstitutunun elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan "Din araşdırmaları" jurnalının yeddinci sayı çapdan çıxıb.

İldə iki dəfə dərc olunan jurnalın yeni sayında 16 məqalə yer alıb. Din sosiologiyası, Təfsir, Kəlam, Hədis, Tarix, İslam məzhəbləri tarixi, Fəlsəfə, Qiraət və təcvid, İslam hüququ və Multikulturalizm bölmələrindən ibarət olan nüsxədə qələmə alınmış elmi məqalələr öz sahəsinin peşəkar və nüfuzlu tədqiqatçıları tərəfindən təqdim edilmişdir.

Jurnalın məqsədi ölkəmizdə və dünyada din sahəsində tədqiqat aparan alimlərin məqalələrini elmi ictimaiyyətə təqdim etməkdən ibarətdir. Dərgidə Azərbaycan və türk dillərində də məqalələr dərc olunub. Redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, İran və İsveçrənin ali təhsil müəssisələrində çalışan tanınmış alimlərdir.

Jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun olaraq hazırlanıb.

Azərbaycan İlahiyyat İnstitutu ali dini təhsil üzrə ixtisaslaşmış müəssisədir. İnstitut din sahəsi də daxil olmaqla, ictimai elmlərin müxtəlif istiqamətlərində monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və məqalələrin nəşrinə üstünlük verir.

Məlumat üçün bildirək ki, akademik nəşrlər ali təhsil müəssisələrinin elmi fəaliyyətinin əsas göstəricilərindən biridir. Gələcəkdə "Din araşdırmaları" jurnalının tanınmış beynəlxalq indekslərə daxil edilməsi nəzərdə tutulur.




Qeyd edək ki, "Din araşdırmaları" jurnalı 2020-ci ildən AAK tərəfindən fəlsəfə və psixologiya üzrə elmi məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilib.

# Azərbaycan İlahiyyat İnstitutu beynəlxalq əlaqələrini genişləndirir

Azərbaycan İlahiyyat İnstitutu Türkiyənin Marmara Universiteti ilə əməkdaşlıq əlaqələrini genişləndirir.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov Marmara Universiteti İlahiyyat fakültəsinin dekanı, professor İsmail Safa Üstün ilə görüşüb.

Görüşdə Azərbaycan İlahiyyat İnstitutu İlahiyyat fakültəsi ilə Marmara Universiteti İlahiyyat fakültəsi arasında əməkdaşlıq perspektivləri müzakirə olunub. Hər iki ali təhsil müəssisəsi arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması; birgə layihələrin reallaşdırılması; professor-müəllim heyəti üçün qarşılıqlı akademik səfərlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilib.

Görüşdə alim və mütəxəssislərin iştirakı ilə konfransların keçirilməsi, pedaqoji heyətin qarşılıqlı münasibətlər qurması, seminarların təşkili haqqında müzakirələr aparılıb. Elmi məlumatların ötürülməsi, təcrübə və araşdırma, tədris prosesinin təşkili ilə bağlı biliklərin bölüşdürülməsi, ali təhsil müəssisələrinin tələbə mübadiləsi və digər məsələlər müzakirə olunub.



Qeyd edək ki, AİI xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verir. Ali təhsil müəssisəsinin hədəfi tədrisin müasir tələblər səviyyəsində qurulması məqsədilə dünyanın digər qabaqcıl universitetləri ilə yanaşı, Türkiyə ali məktəblərinin təcrübəsindən yararlanmaq, tələbə mübadiləsi aparmaq, həmçinin ali məktəblər arasında əlaqələrin genişləndirilməsidir.

# «Din, mədəniyyət və cəmiyyət» adlı «Qış məktəbi»

Azərbaycan İlahiyyat İnstitutunun Lənkəran rayonunda "Din, mədəniyyət və cəmiyyət-3" mövzusunda təşkil etdiyi "Qış məktəbi" 7 fevral 2022-ci il tarixdən öz işinə başlayıb.

AİI-nin kollektivi əvvəlcə şəhərin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad edib. Daha sonra Şəhidlər xiyabanını ziyarət edərək, Vətənimizin azadlığı və müstəqilliyi uğrunda canlarından keçmiş igid oğullarımızın məzarlarını ziyarət ediblər.

"Qış məktəbi"nin açılış mərasimində çıxış edən AİI rektoru Aqil Şirinov tələbələrə uğurlar arzulayıb. Təşkil edilən proqramın tələbələrə böyük imkanlar yaradacağını nəzərə çatdıran A.Şirinov təhsilalanlara bu fürsətdən maksimum yararlanmağı tövsiyə edib.

İnstitut rəhbəri daha sonra Lənkəran rayonunda təşkil edilən "Din, mədəniyyət və cəmiyyət-3" mövzusunda "Qış məktəbi"nin əhəmiyyətini vurğulayıb. Həmçinin bu ərazidə mövcud tarixi-dini abidələrlə tanışlıq, eyni zamanda, tələbələr üçün təşkil edilən seminarların xüsusi səciyyə daşıdığını nəzərə çatdırıb.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Gündüz İsmayılov çıxışında ölkəmizdə mövcud multikultural mühit barədə söhbət açıb. Təşkil edilən "Qış məktəbi" çərçivəsində ekskursiya və seminarların tələbələrin biliklərinin artırılmasında, dünyagörüşlərinin zənginləşdirilməsində xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb. G.İsmayılov gənclərə bu imkanlardan maksimum yararlanmağı tövsiyə edib.

DQİDK-nin Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov çıxış edərək layihə iştirakçılarına uğurlar arzu edib.

Daha sonra tələbələr Lənkəran şəhər Heydər Əliyev mərkəzini ziyarət ediblər.

Qeyd edək ki, fevralın 11-nə qədər davam edəcək "Qış məktəbi"nin təşkilinin əsas məqsədi tələbələrin dünyagörüşlərinin zənginləşdirilməsi, onların ölkəmizdə mövcud multikultural durum, tolerant əhval-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşamasının canlı şahidi olmalarıdır.

* * *

"Qış məktəbi"nin ikinci günü seminar və ziyarətlərlə davam edib.



Günün birinci yarısında tələbələr üçün "ZOOM" platforması üzərindən İzmir Katip Çelebi Universitetinin rektoru, professor Saffet Köse ilə onlayn görüş təşkil edilib. AİI rektoru Aqil Şirinov vebinarda açılış nitqi ilə çıxış edərək, qonaq haqqında geniş məlumat verib.



Daha sonra "İlahiyyat nədir? İlahiyyat elminin dəyəri" mövzusunda çıxış edən professor Saffet Köse dinin əhəmiyyəti, mahiyyəti haqqında geniş söhbət açıb, dinin doğru və düzgün şəkildə tədrisinin vacibliyinə toxunub. Vurğulayıb ki, din doğru mənbələrdən insanlara çatdırılmasa bu, fəlakətə gətirib çıxara bilər. Professor, həmçinin İslam elmlərinin hər birinin əhəmiyyətinə toxunub, bu elmlərin interdisiplinar metodla öyrənilməsinin vacibliyini qeyd edib.

AİI rektoru qonağa dərin məna və məzmun kəsb edən çıxışına görə minnətdarlığını bildirib.



Layihə iştirakçıları günün ikinci yarısında Lənkəran Şəhər Tarix-Diyarşünaslıq Muzeyini ziyarət ediblər. Burada tələbələrə muzey haqqında geniş məlumat verilib. Qeyd olunub ki, Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi 1924-cü ildən rəsmi olaraq fəaliyyətə başlayıb. 1991-ci ildən Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi Mir Əhməd xanın sarayına köçürülüb. Bu abidə Lənkəranın ilk çoxmərtəbəli binasıdır. Hazırda muzeydə 6610 ədəd eksponat mühafizə olunur. Muzeydəki eksponatlar Lənkəranın zəngin tarixini, mədəniyyətini, adət-ənənələrini əks etdirir.



Daha sonra tələbələr Xocalı Soyqırımı Abidəsini ziyarət edib, faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

"Kiçik Bazar" məscidini ziyarət edən tələbələrə tarixi-dini abidə haqqında geniş məlumat verilib. "Kiçik Bazar" məscidi 1906-cı ildə Lənkəranda inşa edilmişdir. Məscid indiyədək əvvəlki görkəmini saxlayıb, hazırda dövlət tərəfindən mühafizə olunur. Burada eyni vaxtda 250 nəfər namaz qıla bilir. Bildirilib ki, əvvəllər məscidin minarəsi olsa da, Sovetlər dövründə dağıdılıb. Azərbaycan Respublikası yenidən müstəqillik qazandıqdan sonra minarə bərpa edilib.

Xatırladaq ki, fevralın 11-nədək davam edəcək "Qış məktəbi"nin təşkilində əsas məqsəd tələbələrin dünyagörüşlərinin zənginləşdirilməsi, onların ölkəmizdə mövcud multikultural durum və tolerant mühitin canlı şahidi olmalarıdır.

* * *

"Din, mədəniyyət və cəmiyyət-3" mövzusunda "Qış məktəbi"nin üçüncü günü seminar və ziyarətlərlə davam edib.

Günün birinci yarısında tələbələr üçün Lənkəran Dövlət Universitetinin baş müəllimi, AMEA Lənkəran Regional Elmi Mərkəzinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Mayis Cəfərovun təqdimatında seminar təşkil olunub.

"Azərbaycanın Cənub-Şərq bölgəsində aşkarlanmış dəfinələr" mövzusunda məruzə edən Mayis Cəfərov bildirib ki, ölkəmizin müxtəlif bölgələri kimi, sözügedən region da zəngin maddi-mədəniyyət nümunələri, o cümlədən numizmatik materiallar ilə zəngindir.

Mövzu haqqında geniş məlumat verən M.Cəfərov vurğulayıb ki, aşkarlanan təksaylı tapıntılar və sikkə dəfinələri bölgə ərazisinin Azərbaycanın siyasi-iqtisadi və mədəni mərkəzlərindən biri olduğunu sübut edir.

M.Cəfərov daha sonra bildirib ki, Cənub-Şərq regionunda aşkarlanmış numizmatik tapıntıların araşdırılması və tədqiqi vacib məsələlərdən biri hesab olunur. Çoxəsrlik Azərbaycan dövlətçilik tarixinin, onun atributlarının öyrənilməsi gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük əhəmiyyət kəsb edir.

Layihə iştirakçıları günün ikinci yarısında "Böyük Bazar" məscidini, Həzi Aslanovun Ev-Muzeyini və "Şeyx Zahid" türbəsini ziyarət ediblər.

(Ardı 14-cü səhifədə)

# «Din, mədəniyyət və cəmiyyət» adlı «Qış məktəbi»

(Əvvəli 12 və 13-cü səhifələrdə)

* * *

"Qış məktəbi"nin dördüncü günü seminar və ziyarətlərlə davam edib.

Günün birinci yarısında tələbələr üçün Lənkəran Dövlət Universiteti Tarix-coğrafiya və incəsənət fakültəsinin dekan müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Müşfiq Bayramovun təqdimatında seminar kecirilib.

"Azərbaycanın Cənub-Şərq bölgəsinin muzeydənkənar tarix və mədəniyyət abidələri" mövzusunda məruzə edən dosent Müşfiq Bayramov bildirib ki, bəşəriyyətin və ayrılıqda hər bir xalqın mədəniyyəti bir çox mənbələrdə əks olunur. Bu qiymətli irs nəsildən-nəslə ötürülməlidir. Məhz bu mədəni dəyərlərin istər ictimai, istərsə də tərbiyəvi əhəmiyyəti böyükdür.



Mövzunun mahiyyətini açıqlayan M. Bayramov qeyd edib ki, mədəni sərvətlərin çox hissəsi məhz olduğu yerdə qorunub-saxlanıldığına və nümayiş olunduğuna görə, onları muzeydənkənar abidələr də adlandırırlar.

Daha sonra vurğulayıb ki, muzey əşyaları kimi bu abidələr də xalqın keçmişini, mədəniyyət və incəsənətini öyrənməkdə əsaslı mənbə kimi əhəmiyyət kəsb edir.

Azərbaycanda muzeydənkənar abidələr haqqında söhbət açan M.Bayramov bildirib ki, ölkəmizdə mövcud olan abidələrin sayı və şəbəkəsi zəngin, tarixi isə çox qədimlərə təsadüf edir. Xüsusilə, muzeydənkənar abidələr arasında keçmiş əsrlərdən müasir günümüzə qədər bizə miras qalmış memarlıq nümunələri müstəsnalıq təşkil edir.

Layihə iştirakçıları günün ikinci yarısında "Seyid Xəlifə" türbəsini ziyarət ediblər.

* * *

Azərbaycan İlahiyyat İnstitutunun Lənkəran rayonunda təşkil etdiyi "Din, mədəniyyət və cəmiyyət 3" mövzusunda "Qış məktəbi" başa çatıb.

Qeyd edək ki, "Qış məktəbi" layihəsinin həyata keçirilməsində əsas məqsəd tələbələrdə vətənpərvərlik ruhlarının gücləndirilməsi, intellektual səviyyələrinin, dünyagörüşlərinin zənginləşdirilməsi, onları ölkəmizdə mövcud olan multikultural durum və tolerant mühit ilə tanış etmək və layiqli vətəndaş olaraq yetişmələrinə töhfə verməkdir.



"Qış məktəbi"nin sonuncu günü bağlanış mərasimi keçirilib. Mərasimdə çıxış edən AİI-nin rektoru, dosent Aqil Şirinov tələbələri layihənin uğurla başa çatması münasibətilə təbrik edib.

A.Şirinov təşkil edilən proqramın tələbələr üçün böyük şans olduğunu vurğulayıb. Rektor təhsilalanlara ilahiyyat sahəsində biliklərini zənginləşdirməyi, bu imkanlardan maksimum yararlanmağı tövsiyə edib.

Ali təhsil müəssisəsinin rəhbəri daha sonra cəmiyyətimizi xurafatdan, mövhumatdan uzaq, saf, düzgün dini biliklərlə maarifləndirməyin əhəmiyyətinə toxunub, tələbələri milli-mənəvi dəyərlərimizin ictimaiyyətə düzgün çatdırılması işində fəal olmağa çağırıb.

A.Şirinov, həmçinin Lənkəranda təşkil edilən "Din, mədəniyyət və cəmiyyət-3" mövzusunda "Qış məktəbi"nin əhəmiyyətindən bəhs edib. Lənkəran rayonunda mövcud olan qədim abidələrimizlə tanışlığın, eyni zamanda, təşkil edilən seminarların gənclərin biliklərinin artırılmasında xüsusi səciyyə daşıdığını nəzərə çatdırıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov bağlanış mərasimində çıxış edərək, belə layihələrin icrasının gənclərin milli-mənəvi dəyərlərimizlə tanışlıq baxımından xüsusi əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. Belə layihələrdə gənclər aktiv iştirak etməli, multikultural, tolerant mühitin canlı şahidi olmalıdırlar. M.İsmayılov vurğulayıb ki, Azərbaycan İlahiyyat İnstitutunun tələbələri və məzunlarının üzərinə milli-mənəvi dəyərlərimizin təbliği kimi böyük missiya düşür.

"Qış məktəbi" iştirakçıların mükafatlandırılması və sertifikatların təqdim olunması mərasimi ilə yekunlaşıb.

# İlk dərslər Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunub

Azərbaycan İlahiyyat İnstitutunda "Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı Təhsil Nazirliyinin tədbirlər planı"na əsasən, 25 fevral 2022-ci il tarixdə ilk dərslər Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunub.

Müəllimlər 30 il bundan əvvəl Xocalı sakinlərinə qarşı sovet ordusunun 366-cı motoatıcı alayının dəstəyi ilə erməni silahlı birləşmələri tərəfindən törədilən faciənin dəhşətlərindən söz açıblar. Xocalı soyqırımı ilə bağlı fikirlərini tələbələrlə bölüşən müəllimlər şəhid olmuş günahsız insanların həmişə ehtiramla yad ediləcəklərini diqqətə çatdırıblar.

Dərslərdə Xocalı soyqırımı haqqında həqiqətləri çatdırmaq məqsədilə müxtəlif fotoşəkillər, məlumatlar, faciəni özündə əks etdirən sənədli filmlər nümayiş olunub.



# Tələbələr Heydər məscidini ziyarət ediblər

Azərbaycan İlahiyyat İnstitutunun tələbələri 1 mart 2022-ci il tarixdə ulu öndər Heydər Əliyevin adını daşıyan məscidi ziyarət ediblər.

Tələbələrə məscidin inşası və fəaliyyəti haqqında geniş məlumat verilib.

Ziyarət zamanı Heydər məscidinin axund müavini Rza Rzayev, axund köməkçisi Cəfər Cəfərov tələbələrlə müxtəlif mövzular ətrafında müzakirələr aparıb, onları maraqlandıran sualları cavablandırıb.

Qeyd edək ki, AİI tələbələrin dünyagörüşlərinin formalaşdırılması, intellektual səviyyələrinin, mənəvi dünyalarının zənginləşdirilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi, sosial məsuliyyət vərdişlərinin aşılanması, o cümlədən, fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlər təşkil edir.



# Konfrans materialları çapdan çıxıb

Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı ilə keçirilən "Dini-irfani və fəlsəfi kontekstdə Nizami Gəncəvi yaradıcılığı" mövzusunda onlayn elmi konfransın materialları çapdan çıxıb.

Topluda on altı elm adamının "Nizami yaradıcılığında dini-fəlsəfi motivlər və şairin dini-ideoloji baxışları", "Nizami Gəncəvi poeziyasında irfani düşüncə tərzi və "ədalət" konsepsiyası", "Nizami Gəncəvi yaradıcılığında multikultural və tolerant dəyərlər", "Nizami Gəncəvi yaradıcılığında humanizm ideyaları və digər müsbət əxlaqi keyfiyyətlərin təbliği", "Nizami Gəncəvi qəhrəmanlarının dini mənsubiyyəti", "Nizami yaradıcılığında islami dəyərlər", "Nizami "Xəmsə"sində minacat", "Nizami Gəncəvi yaradıcılığında Peyğəmbərin mədhi və nət ənənəsi", "Nizami Gəncəvi yaradıcılığında insan haqlarının təbliği", "Azərbaycanın mədəniyyət tarixində Nizami şəxsiyyəti və yaradıcılığı", "Nizami əsərlərində Azərbaycan mədəniyyətinin əksi", "Nizami Gəncəvinin elmi-fəlsəfi irsi tədqiqatçıların araşdırmalarında və nizamişünaslığın aktual problemləri", "Nizami dühası dünya ictimai-fəlsəfi fikrində" mövzularında məqalələri çap olunub.

Qeyd edək ki, sözügedən konfrans dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncamına uyğun olaraq keçirilib.




# Qazaxıstanlı tələbələr İlahiyyat İnstitutunda

Qazaxıstanda fəaliyyət göstərən "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universiteti ilə əməkdaşlıq müqaviləsi çərçivəsində sözügedən ali təhsil müəssisəsinin iki tələbəsi təhsilini Azərbaycan İlahiyyat İnstitutunda davam etdirir. Bir semestr davam edəcək tədris ingilis dilində aparılır. Dərslər öz sahəsinin peşəkar mütəxəssisləri olan Aİl-nin müəllimləri tərəfindən keçirilir.



Qeyd edək ki, AİI-nin qarşısına qoyduğu məqsədlərdən biri də ali təhsil müəssisəsinin dünya miqyasında tanınmasına nail olmaqdır. Bu istiqamətdə İnstitut ilahiyyat sahəsində tanınmış dünya universitetləri ilə əlaqələr yaradır, ikitərəfli əməkdaşlığa dair memorandumlar və müqavilələr imzalayır. Hazırda əməkdaşlıq müqaviləsi çərçivəsində AİI-nin tələbələri xarici ölkə universitetlərində ilahiyyat sahəsi üzrə təhsillərini davam etdirirlər.

# Aİİ rektoru gənclərlə görüşüb

YAP Yasamal Rayon Təşkilatında 17 mart 2022-ci il tarixdə Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov "Milli-mənəvi dəyərlər" mövzusunu əhatə edən tədbir çərçivəsində gənclərlə görüşüb.

YAP Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev gəncləri salamlayıb və qeyd edib ki, xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli-mənəvi dəyərləri qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur.



Vətən, ata-ana, el-oba, yurd yeri, doğma ocaq sevgisi, namus-qeyrət təəssübü çəkmək, vətənpərvərlik, halal-haram, böyük-kiçik, ədəb-ərkan, etik dəyərlər, unudulmaz inam və inanclarımız, nəhayət, müqəddəs milli adət-ənənələrimiz ümumən milli mentalitetimizin məhək daşıdır.

Vətənpərvərlik xalqımızın qan yaddaşıdır. Zaman ötsə də, bu böyük, bəşəri hisslər millətimizin, xalqımızın həyatında həmişə başlıca meyar olmuş, bir xarakter kimi formalaşmış, nəsillərin fəaliyyətinin fövqündə dayanmışdır.

Zaman, tarix, Azərbaycan xalqının vətənpərvərlik ənənələri hər birimizin yaddaşında həkk olunmalıdır. Milli ideologiya, milli tarix, milli dil, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, fərdi yaddaşı, etnos yaddaşını, millətin, xalqın yaddaşını ehtiva edən folklorumuz bizim milli-mənəvi dəyərlərimizdir. Bir sözlə, milli olan bütün nailiyyət və keyfiyyətlərimiz milli dəyərlər sisteminə aiddir.

Çıxış edən Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov söyləyib ki, milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Bu dəyərlərin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir.

İnsanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir.

Mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlayıb. Dəyərlərin formalaşması prosesi nəticəsində dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xüsusiyyətlər yaranır.

Hər bir Azərbaycan vətəndaşının da başlıca vəzifəsi milli-mənəvi dəyərlərimizi qloballaşma dövrünün mənfi tendensiyalarından qorumaq, xalqımızın min illər boyu yaratdığı zəngin tarixi-mədəni irsi gələcək nəsillərə olduğu kimi çatdırmaq üçün səy göstərmək olmalıdır. Hər bir mövzu öz aktuallığı ilə seçilir, məhz milli-mədəni dəyərlər mövzusunda da təbliğat vacibdir. Bu təbliğat geniş şəkildə aparılsa, vətəndaşlarda tarixi yaddaş daha da güclənər. Milli



dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik hissi yaşamasını isə tolerantlığın bariz təzahürü hesab edirdi. Əslində, dini və etnik tolerantlıq Azərbaycan xalqının qanında, canında, kökündə var.

Daha sonra gənclərlə aktiv müzakirə formatında keçən görüşdə gənclər öz ürəy sözlərini bölüşüb və suallarına cavab alıblar.

Sonda gənclərlə birlikdə xatirə şəkli çəkilib.

# Novruz bayramı tədbiri

Azərbaycan İlahiyyat İnstitutunda 17 mart 2022-ci il tarixdə Novruz Bayramı ilə əlaqədar tədbir keçirilib.

AİI rektoru, dosent Aqil Şirinov tədbir iştirakçılarını salamladıqdan sonra, qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini çatdırıb. İnstitut rəhbəri bildirib ki, Azərbaycan xalqının zəngin folklorunu, adət-ənənələrini özündə yaşadan Novruz Bayramı xalqımızın milli-mənəvi irsini, eyni zamanda, sülh və barış kimi bəşəri dəyərləri özündə təcəssüm etdirir. A.Şirinov Respublika Prezidenti İlham Əliyevin milli-mənəvi dəyərlər əsasında ölkəmizin müasirləşməsini nəzərdə tutan sözlərini səsləndirib: “Müasirlik, yenilik və eyni zamanda, milli dəyərlərə, milli köklərə bağlılıq. Bugünkü Azərbaycanı təsvir edən bu ideya, artıq hamıya bəllidir. Azərbaycan xalqı daim öz milli köklərinə bağlı xalq olmuşdur və bizim gələcək uğurlarımız da məhz bu amillərlə bağlıdır. Biz tarixi irsimizin, zəngin mədəni irsimizin əsasında müasir, güclü Azərbaycan qururuq”.

Rektor Novruzun tarixindən və dini nöqteyi-nəzərdən bayramların əhəmiyyətindən, cəmiyyətdəki rolundan bəhs edib.

Ali təhsil müəssisəsinin rəhbəri daha sonra vurğulayıb ki, bayramlar, xüsusən Novruz cəmiyyətdə birləşdirici funksiya icra edir. A.Şirinov bildirib ki, Novruz - insanların bir arada olduqları, qardaşlıq, qohumluq, qonşuluq duyğularının özünü bürüzə verdiyi bayramdır.

AİI rektoru vurğulayıb ki, iki ildir bayramları, artıq xüsusi sevinc hissi ilə qeyd edirik. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qalib Azərbaycan Ordusu doğma torpaqlarımızı işğaldan azad etdi. Həmin ərazilərdə bu gün Novruz Bayramını qeyd edirik. Bayram tonqallarını düşmən tapdağından azad olunmuş torpaqlarımızda yandırırıq.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu Novruz bayramı münasibətilə aztəminatlı ailələrə bayram sovqatı göndərib.



## Film nümayiş olunub

Azərbaycan İlahiyyat İnstitutunda 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar film nümayiş etdirilib.

Film 1918-ci ildə Bakıda, eləcə də Azərbaycanın digər bölgələrində bolşevik və erməni daşnak ordularının planlı surətdə dinc yerli əhaliyə qarşı törətdikləri soyqırımından bəhs etməklə yanaşı, bu silahlı birləşmələrin misli görünməmiş vəhşiliklərini sənədlər əsasında nümayiş etdirir.







* AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN BÜLLETENİ *

# İnsan Qardaşlığı Ali Komitəsinin Baş katibi İlahiyyat İnstitutunun qonağı olub



İnsan Qardaşlığı Ali Komitəsinin Baş katibi Məhəmməd Əbdülsalam 18 mart 2022-ci il tarixdə Azərbaycan İlahiyyat İnstitutunu növbəti dəfə ziyarət edib.

Aİİ rektoru, dosent Aqil Şirinov qonağı salamlayaraq, ali təhsil müəssisəsində yenidən görməkdən məmnun olduğunu bildirib.

Azərbaycan Respublikasının mədəniyyətlərarası, dinlərarası, həmçinin millətlərarası əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edən A.Şirinov sözügedən müəssisə ilə əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduğunu diqqətə çatdırıb.

İnsan Qardaşlığı Ali Komitəsinin Baş katibi Məhəmməd Əbdülsalam öz növbəsində, ölkəmizdə səfərdə olmasından, mədəniyyətlərarası münasibətlərin inkişafı üçün yaradılmış əlverişli şərait ilə tanışlıqdan razı qaldığını ifadə edib.

Azərbaycan İlahiyyat İnstitutu və İnsan Qardaşlığı Ali Komitəsinin səlahiyyətli nümayəndələri arasında baş tutan görüş mədəniyyətlərarası, dinlərarası əlaqələrin inkişafına töhfə vermək istiqamətində müvafiq qaydada birgə əməkdaşlıq haqqında ilkin razılıqların əldə edilməsi ilə yekunlaşıb.

Daha sonra İnsan Qardaşlığı Ali Komitəsinin Baş katibi Məhəmməd Əbdülsalam Aİİ-nin kollektivi ilə görüşüb. Məhəmməd Əbdülsalam təmsil etdiyi qurumun təsis edilməsi, onun səmərəli fəaliyyəti, həyata keçirdiyi layihələr haqqında məlumat verib. O bildirib ki, dinlər və mədəniyyətlər arasında qarşılıqlı hörmət, dinc yaşayış, ümumbəşəri qardaşlıq ideyalarını, müştərək bəşəri dəyərləri təşviq və təbliğ etmək məqsədi daşıyan İnsan Qardaşlığı Ali Komitəsi qarşıya qoyulan hədəflərə nail olmaq üçün müxtəlif layihələrin həyata keçirilməsinə səy göstərir.

Tədbir Aİİ müəllimləri ilə fikir mübadiləsi formatında davam etdirilib.

Görüşün sonunda A.Şirinov Azərbaycan İlahiyyat İnstitutunu ziyarət etdiyinə, ali təhsil müəssisəsi ilə əməkdaşlığına və onun inkişafına dəstək verməyə hazır olduğunu bildirdiyinə görə, İnsan Qardaşlığı Ali Komitəsinin Baş katibi Məhəmməd Əbdülsalama təşəkkür edib.

İnsan Qardaşlığı Ali Komitəsinin Baş katibi Məhəmməd Əbdülsalam, öz növbəsində, səmimi münasibətə, qonaqpərvərliyə və faydalı fikir mübadiləsinə görə səmimi təşəkkürünü bildirib.

# Aİİ-nin müəllimi beynəlxalq tədbirdə çıxış edib

Azərbaycan İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Anar Qafarov 30 mart 2022-ci il tarixdə Türkiyənin Qazi Universitetinin "Türk dünyasının qabaqcıl elm adamları konfranslar silsiləsi" ("Türk dünyasının öncü bilim insanları konferanslar dizisi") mövzusunda təşkil etdiyi vebinarda mühazirə ilə çıxış edib.

Tədbir "ZOOM" platforması üzərindən onlayn formatda keçirilib.

Konfransda Qazi Universitetinin rektoru, professor Musa Yıldız, Universitetin Layihələrin Təşkili və Araşdırma Mərkəzinin müdiri, professor Salih Şahin, müdir müavini, dosent Asuman Aşık, professor və müəllim heyəti, həmçinin tələbələr iştirak ediblər.

Professor Salih Şahinin moderatorluq etdiyi tədbirdə dosent Anar Qafarovun "Nəsirəddin Tusinin əxlaq fəlsəfəsi" mövzusunda mühazirəsi dinlənilib.

Anar Qafarov məruzəsində Nəsirəddin Tusinin müsəlman dünyasında fəlsəfi düşüncəni inkişaf etdirən alimlərdən biri olduğunu vurğulayıb. Həmçinin dahi alimin özünəqədərki hikmət xəzinəsini mükəmməl surətdə mənimsəyərək, onun Osmanlı əxlaq fəlsəfi düşüncəsində xüsusi çəkisi olan filosof olduğunu vurğulayıb. Tusinin araşdırmalarının əsas istiqamətlərindən birini təşkil edən əxlaq fəlsəfəsinin mükəmməl öyrənilməsini irəli sürən məruzəçi A.Qafarov alimin fəaliyyətini



yüksək qiymətləndirib.

Məlumat üçün bildirək ki, sözügedən vebinar Qazi Universitetinin "Türk dünyasının qabaqcıl elm adamları konfranslar silsiləsi" ("Türk dünyasının öncü bilim insanları konferanslar dizisi") mövzusunda təşkil etdiyi sayca doqquzuncu tədbirdir.

Vebinar qarşılıqlı müzakirə və sual-cavabla davam edib.

# İlahiyyat İnstitutunun kollektivi Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib

Azərbaycan İlahiyyat İnstitutunun bir qrup əməkdaşı və tələbə heyəti 29 mart 2022-ci il tarixdə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Quba rayonuna səfər edib.

İnstitutun heyəti öncə şəhərin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər.

İnstitut heyəti Quba Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsini ehtiramla yad edib, ruhlarına dualar oxuyub, məzarları üzərinə gül dəstələri düzüb.





Daha sonra İnstitutun kollektivi Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib, abidə önünə gül dəstələri düzüblər. Azərbaycan tarixinə XX əsrin ən dəhşətli soyqırımlarından biri kimi daxil olan faciə zamanı bolşevik-erməni silahlı dəstələri Bakı, Quba, Şamaxı, Göyçay, Cavad, Salyan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə kütləvi qətliamlar törədib, mindən artıq kənd yandırılıb və dağıdılıb.

AİI-nin kollektivi səfər çərçivəsində Qubada fəaliyyət göstərən “Cümə məscidi” və “Ərdəbil” məscidlərini ziyarət ediblər.

Daha sonra İnstitut kollektivi Qubada yerləşən “Qırmızı qəsəbə”də olub. “Giləki” sinaqoqu ilə yaxından tanış olublar. AİI heyətinə yəhudilərin adıçəkilən qəsəbədə, həmçinin Azərbaycanda məskunlaşması tarixi, ölkəmizdəki multikultural mühit və tolerantlıq ənənələri haqqında ətraflı məlumat verilib.

Məlumat üçün bildiririk ki, AİI-nin bölgələrimizə təşkil etdiyi səfərlərin məqsədi tələbələrdə vətənpərvərlik ruhunun gücləndirilməsinə, milli ruhda yetişməsinə töhfələr vermək, onların dünyagörüşlərinin zənginləşdirilməsi, ölkəmizdə mövcud olan multikultural durum və tolerant mühit ilə tanış etməkdir.



*Azərbaycan İlahiyyat İnstitutu Tələbə Elmi Cəmiyyətinin üzvləri 15 aprel 2022-ci il tarixdə Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimovun məzarını ziyarət ediblər*



# İlahiyyat İnstitutunda Ramazan tədbiri



Azərbaycan İlahiyyat İnstitutunda 7 aprel 2022-ci il tarixdə Ramazan ayının hikmət və fəzilətləri mövzusunda tədbir təşkil olunub.

AİI rektoru Aqil Şirinov Ramazan ayının gəlişi münasibətilə hər kəsi təbrik edib, Ramazanın mənəvi yüksəliş və bərəkət ayı olduğunu vurğulayıb. Ali təhsil müəssisəsinin rəhbəri bu ayın hikmət və fəzilətlərindən yararlanmağın vacib olduğunu qeyd edib.

Rektor daha sonra səmavi dinlərdə oruc ibadəti haqqında tələbələrə məlumat verib. Bildirib ki, İslamdan əvvəl də oruc ibadəti bütün ilahi dinlərdə mövcud olub.




A.Şirinov Qafqaz Müsəlmanları İdarəsi (QMİ) tərəfindən təsdiq olunan Ramazan ayının təqviminə, eyni zamanda, verilən tövsiyələrə əməl edilməsinin vacibliyinə də toxunub.

AİI-nin İslamşünaslıq kafedrasının müəllimi Vüqar Səmədov Ramazan ayının hikmət və fəzilətləri mövzusunda bəhs edərək, oruc ibadətinin insanlara səbri, təqvalı olmağı öyrətdiyini bildirib. Bu müqəddəs ayda insanların lüzumsuz işlərin ardınca getməsinin doğru olmadığını diqqətə çatdırıb.



Ramazanın həmrəylik, dostluq, qardaşlıq, sevgi, mərhəmət və ruzi-bərəkət ayı olduğunu vurğulayan V.Səmədov bu ayın insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırdığını qeyd edib. O, cəmiyyət üzvləri arasında əlaqələrin gücləndirilməsində də Ramazan ayının xüsusi əhəmiyyətə malik olduğunu söyləyib.

# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan İlahiyyat İnstitutunun yeni inzibati binasının açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət



göstərən Azərbaycan İlahiyyat İnstitutunun yeni inzibati binasının açılışında iştirak edib.

Çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda ulu öndər Heydər Əliyevin əsasını qoyduğu din-dövlət münasibətləri yüksək səviyyədədir və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir, multikultural həyat tərzinin daha da möhkəmlənməsi üçün böyük





işlər görülüb və görülür. Təsadüfi deyil ki, Azərbaycanın tolerantlıq modeli dünyanın bir çox universitetlərində, o cümlədən bu gün yeni binası istifadəyə verilən Azərbaycan İlahiyyat İnstitutunda öyrənilir.

Prezident İlham Əliyev yeni binada yaradılan şəraitlə tanış olub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dövlətimizin başçısına məlumat verərək bildirdi ki, İnstitutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. İnstitutda bakalavriat səviyyəsi üzrə "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisasları, magistratura səviyyəsi üzrə (dinşünaslıq ixtisası üzrə) "Dinin sosiologiyası", "Dinin psixologiyası", "Dinlərin tarixi" və "İslamşünaslıq" ixtisaslaşmaları, doktorantura səviyyəsi üzrə isə (fəlsəfə doktoru üzrə) "Dinşünaslıq", "Dinin tarixi və fəlsəfəsi" ixtisasları tədris olunur.

Hər üç səviyyədə təhsil dövlət sifarişinə əsasən həyata keçirilir. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin ingilis, ərəb və ibri dilləri tədris olunur.

Qeyd edək ki, Bakının Yasamal rayonunda inşa olunan beşmərtəbəli binada inzibati və sinif otaqları, kitabxana, kişilər və qadınlar üçün ayrı-ayrılıqda namaz otaqları, həmçinin dəstəmaz və mətbəə otaqları yaradılıb.

Hazırda Azərbaycan İlahiyyat İnstitutunda 277 tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 43 müəllim məşğul olur. İnstitutun müəllimləri tədris prosesi ilə yanaşı, dinşünaslıq və islamşünaslıq sahələrində elmi tədqiqatlar aparır, dərslik və monoqrafiyalar yazır, ölkədaxili və beynəlxalq elmi tədbirlərdə iştirak edirlər.

# İlahiyyat İnstitutunun müəllimi beynəlxalq konfransda iştirak edib

fAzərbaycan İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Aliyə Mürsəlova 12 aprel 2022-ci il tarixdə Kolumbiya Respublikasının Boqota şəhərində keçirilən beynəlxalq konfransda onlayn formatda iştirak edib. Qeyd edək ki, tədbir "Latın Amerikası: sosial və humanitar elmlər" mövzusunda təşkil olunub.




A.Mürsəlova "XIX-XX əsrlərdə Azərbaycanın din və təhsil sistemində qadın siyasəti" mövzusunda çıxış edib. Məruzəçi İslam dininin təhsil prosesində kişi ilə qadını eyniləşdirdiyini, həmçinin qadınların təhsil almalarına böyük önəm verdiyini vurğulayıb.

A.Mürsəlova daha sonra sovet hakimiyyəti və Azərbaycan müstəqillik qazandıqdan sonrakı dövrlərdə qadınların din və təhsil sahəsindəki rollarından bəhs edib. Bildirib ki, 1889-cu ildə Nigar Şıxlinskaya ali təhsil alan ilk azərbaycanlı qadın olmuşdur. Qeyd edib ki, Aleksandra imperator rus-müsəlman qız məktəbi – ilk dünyəvi qız məktəbi idi.



Məruzəçi vurğulayıb ki, Rusiya imperiyasında və müsəlman Şərqində ilk məktəb 1901-ci ildə Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və dəstəyi ilə açılmış və fəaliyyət göstərmişdir. 1908-ci ildə xeyriyyəçi Həmidə Məmmədquluzadə oğlan və qızların birgə təhsil aldıqları ilk məktəbin əsasını qoymuşdur.

A.Mürsəlova Azərbaycan müstəqillik qazandıqdan sonrakı dövrdə ölkəmizdə din təhsilinə verilən önəmi xüsusi qeyd edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun təsis edilməsi, ali təhsil müəssisəsinin fəaliyyəti haqqında da məlumat verib.

## Seminar keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda 18 aprel 2022-ci il tarixdə ali təhsil müəssisəsinin tələbə və müəllim heyətinə seminar təşkil olunub. Tədbirdə Özbəkistan Beynəlxalq İslam Akademiyasının (ÖBİA) əməkdaşları məruzə ilə çıxış ediblər.

ÖBİA-nın Xarici tələbələrlə iş üzrə şöbəsinin müdiri Navruzbek Abdullajonov təmsil etdiyi ali təhsil müəssisəsinin tarixi, fəaliyyəti və qarşıda duran hədəfləri haqqında geniş məlumat verib. Bildirib ki, təhsil ocağı 16 aprel 2018-ci il tarixdə yaradılıb. Məruzəçi bakalavr, magistratura və doktorantura səviyyələri üzrə ixtisaslar, tədris edilən fənlər haqqında geniş məlumat verib. Özbəkistanda dini sahədə baş verən islahatlar haqqında danışıb, konfensiyalar barədə məlumat verib. Həmçinin o, Özbəkistanın böyük alimlərin vətəni olduğunu qeyd edərək, İmam Buxari, İmam Tirmizi, İmam Maturidi və digərləri haqqında ətraflı məlumat verib.




Akademiyanın müəllimi iqtisadiyyat üzrə fəlsəfə doktoru Nilufar Batirova İslam bankçılığı haqqında məruzə ilə çıxış edib. Nilufar Batirova İslam bankçılığında mürabəhədən istifadənin səmərəliliyi və onun digər banklarda istifadə formaları haqqında çıxış edib.

Tədbir müzakirələrlə davam edib.

# Özbək tələbələr dərslərdə iştirak ediblər



Özbəkistan Beynəlxalq İslam Akademiyası (ÖBİA) ilə əməkdaşlıq müqaviləsi çərçivəsində sözügedən ali təhsil müəssisəsinin "Dinşünaslıq" ixtisaslaşması üzrə təhsil alan beş magistrantı Azərbaycan İlahiyyat İnstitutunda təcrübə keçiblər. Səfər çərçivəsində ÖBİA-nın əməkdaşları Aİİ tələbələri üçün seminarlar veriblər.

Aİİ rektoru Aqil Şirinov qonaqlarla görüşüb, onları ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu ifadə edib. Rektor İnstitutun fəaliyyəti, qarşıda duran məqsəd və hədəflər



haqqında geniş məlumat verib. Bildirib ki, ali təhsil müəssisəsində bakalavr, magistratura və doktorantura səviyyələri üzrə dövlət sifarişi üzrə qəbul həyata keçirilir.

A. Şirinov Aİİ-də təhsilin keyfiyyətini xüsusi vurğulayaraq qeyd edib ki, burada keçirilən fənlər ərəb və ingilis dillərində sərbəst mühazirə deyə bilən, öz sahəsinin peşəkar mütəxəssisləri tərəfindən tədris olunur.

Aİİ rektoru daha sonra ali təhsil müəssisəsinin yeni binasının istifadəyə verildiyini qeyd edib. A.Şirinov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin açılışda şəxsən iştirak etdiyini bildirərək ölkəmizdə dövlət-din münasibətlərinə xüsusi diqqət və qayğı göstərildiyini vurğulayıb.

ÖBİA-nın Xarici tələbələrlə iş üzrə şöbəsinin müdiri Navruzbek Abdullajonov və Akademiyanın müəllimləri prof., doktor Nilufar Batirova, prof., doktor Mokhira Abdullayeva təmsil etdikləri təhsil müəssisəsi haqqında geniş məlumat veriblər. Onlar çıxışları zamanı bildiriblər ki, qarşılıqlı əməkdaşlıq çərçivəsində tələbələrimizin Aİİ-də təcrübə keçmələri böyük əhəmiyyət kəsb edir. Qonaqlar Aİİ-nin tələbə və müəllimlərini ÖBİA-da mübadilə proqramı çərçivəsində təcrübə keçməyə dəvət ediblər.

Qeyd edək ki, Aİİ-nin qarşısına qoyduğu məqsədlərdən biri də ali təhsil müəssisəsinin dünya miqyasında tanınmasına nail olmaqdır. Bu istiqamətdə İnstitut ilahiyyat sahəsində tanınmış dünya universitetləri ilə əlaqələr yaradır, ikitərəfli əməkdaşlığa dair memorandumlar və müqavilələr imzalayır. Hazırda əməkdaşlıq müqaviləsi



çərçivəsində Aİİ-nin tələbələri xarici ölkə universitetlərində ilahiyyat sahəsi üzrə təhsillərini davam etdirirlər.

# Azərbaycan İlahiyyat İnstitutu kollektivinin Prezident cənab İlham Əliyevə Müraciəti

Azərbaycan İlahiyyat İnstitutunun kollektivi Prezident İlham Əliyevə Müraciət ünvanlayıb. Müraciətdə deyilir:

***– Möhtərəm cənab Prezident,***

Biz – Azərbaycan İlahiyyat İnstitutunun kollektivi İnstitutun yarandığı 2018-ci il fevralın 9-dan etibarən göstərdiyiniz yüksək qayğının daha bir bariz nümunəsi kimi, ali təhsil müəssisəsini müasir standartlara uyğun yeni bina ilə təmin etdiyinizə görə Sizə öz dərin minnətdarlığımızı bildiririk. Mübarək Ramazan ayında və məhz xalqımızın etimadını qazanaraq növbəti dəfə Prezident seçildiyiniz gündə Zati-alinizin iştirakı ilə institutumuzun binasının açılışı təkcə kollektivimiz deyil, bütövlükdə ölkəmizin dini ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Öz şərəfli tarixinin bütün dövrlərində müxtəlif etnos və dinlərin nümayəndələrinin birgəyaşayış təcrübəsini həyat tərzinə çevirmiş Azərbaycan xalqı bu ənənəsini dövlət müstəqilliyimizin bərpasından sonra da möhkəmləndirərək uğurla davam etdirmişdir. Müasir dövrümüzdə Azərbaycanın dini və etnik tolerantlığa nümunə olan dövlətə çevrilməsində ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Ulu Öndərin əsasını qoyduğu dövlət-din münasibətləri modelinin Zati-aliniz tərəfindən uğurla davam etdirilməsi beynəlxalq aləmdə qəbul olunmuş həqiqətdir. Respublikamızda 2016-cı ilin “Multikulturalizm İli” və 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan edilməsi barədə sərəncamlarınızdan sonra, Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun təsis olunmasına dair sərəncamlarınız bu sahədə mərhələli həyata keçirdiyiniz siyasətin məntiqi nəticəsi, dövlət-din münasibətlərinin tənzimlənməsində yeni dövrün başlanğıcıdır. Qürur hissi ilə deyə bilərik ki, bu gün Zati-alinizin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə həm ölkəmizdə, həm də respublikamızdan kənarda müxtəlif dinlərə aid məbədlərin inşası və bərpası işləri həyata keçirilir. Müzəffər Ali Baş Komandan kimi işğaldan azad olunmuş torpaqlarımızda erməni vandalizminin qurbanına çevrilmiş müsəlman və xristian-Alban məbədlərinin bərpası, təmiri və yenidən inşası istiqamətində göstərdiyiniz qayğı və diqqət dini camiə tərəfindən böyük məmnuniyyətlə qarşılanmışdır.

Möhtərəm cənab Prezident, bir daha kollektivimizə göstərdiyiniz qayğı və diqqətə görə Zati-alinizə öz dərin minnətdarlığımızı bildirir, dövlətimizin inkişafı, Vətənimizdə və dünyada sülhün bərqərar olması istiqamətində məsuliyyətli və şərəfli fəaliyyətinizdə Sizə uğurlar arzulayırıq.

Uca Yaradan Sizi və Vətənimizi qorusun!

***Dərin ehtiramla,***
*Azərbaycan İlahiyyat İnstitutunun kollektivi adından,*
*rektor Şirinov Aqil.*

**Azərbaycan Respublikası,**
**Bakı şəhəri.**

***15 aprel 2022-ci il***



* AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN BÜLLETENİ *

# Maarifləndirmə tədbirləri başlayıb



Azərbaycan İlahiyyat İnstitutu 2022-2023-cü tədris ili üzrə ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərinə başlayıb. İnstitutun ilk səfəri 19 aprel 2022-ci il tarixdə Xəzər rayonuna olub.

Xəzər Rayon İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülbala Qurbanov tədbiri giriş sözü ilə açaraq qeyd edib ki, Respublika Prezidentinin rəhbərliyi altında ölkəmizdə




təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir.

G.Qurbanov daha sonra AİI-nin yeni binasının açılış mərasiminə diqqət çəkərək bildirib ki, təhsillə bağlı dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, yeni təhsil müəssisələrinin açılması, onların müasir avadanlıqlarla təchiz edilməsi Azərbaycanın gələcək inkişafı üçün atılan mühüm addımlardandır.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov ali təhsil müəssisəsinin yaranması, fəaliyyəti və qarşıda duran hədəfləri barədə geniş məlumat verib. M.Mürsəlov İnstitutun yeni binasının açılış mərasiminin keçirildiyini qeyd edərək, Prezident cənab İlham Əliyevin bu mərasimdə şəxsən iştirak etməsini ölkə başçısının dövlətdin münasibətlərinə göstərdiyi diqqət və qayğının bariz nümunəsi kimi vurğulayıb. O, nəzərə çatdırıb ki, İnstitutun yeni binasında tələbələr üçün hər bir şərait yaradılıb.

M.Mürsəlov bildirib ki, İnstituta qəbul olunmuş hər bir abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq. Həmçinin tələbələrin yemək pulu ilə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarının təşkili və digər üstünlüklərə sahib olacaqlarını da nəzərə çatdırıb. Prorektor tələbələrə dəstək xidmətləri, məzunlar üçün iş imkanları haqqında ətraflı məlumat verib.

AİI Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş




məlumat verib. O, İnstitutun fəaliyyəti, səfərləri, tələbələr üçün təşkil edilən yay və qış məktəbləri barədə danışıb.

Tədbirdə abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

# Özbəkistanlı alim seminar verib




Azərbaycan İlahiyyat İnstitutunda 20 aprel 2022-ci il tarixdə Özbəkistan Beynəlxalq İslam Akademiyasının (ÖBİA) müəllimi, prof., doktor Mokhira Abdullayeva ali təhsil müəssisəsinin tələbə və müəllim heyəti qarşısında məruzə ilə çıxış edib.

ÖBİA-nın müəllimi, prof., doktor Mokhira Abdullayeva Özbəkistan Respublikasında İslam dininə aid veb-saytların təsnifatından bəhs edib. Məruzəçi qloballaşan dünyada ölkənin təhlükəsizliyinin qorunmasında, milli maraqların təmin olunmasında medianın rolundan, onun cəmiyyətə təsirlərindən danışıb.

Daha sonra Mokhira Abdullayeva ölkədə olan dini tədqiqat mərkəzləri, nəşriyyatlar, institutlar, akademiyalar və məscidlərin veb-saytları haqqında söhbət açıb.

Tədbir müzakirələrlə davam edib.

Qeyd edək ki, Aİİ-nin qarşısına qoyduğu məqsədlərdən biri də ali təhsil müəssisəsinin dünya miqyasında tanınmasına nail olmaqdır. Bu istiqamətdə İnstitut ilahiyyat sahəsində tanınmış dünya universitetləri ilə əlaqələr yaradır, ikitərəfli əməkdaşlığa dair memorandumlar və müqavilələr imzalayır. Hazırda əməkdaşlıq müqaviləsi çərçivəsində Aİİ-nin tələbələri xarici ölkə universitetlərində ilahiyyat sahəsi üzrə təhsillərini davam etdirirlər.

# Tələbələr üçün təlimlər



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQDİK) tabeliyində Azərbaycan İlahiyyat İnstitutunda 25 aprel 2022-ci il tarixdə “Sosial və Psixoloji Tədqiqatlar Mərkəzi” İctimai Birliyi tərəfindən icra edilən “Gənclər arasında zərərli dini baxışların sosial-psixoloji reabilitasiya, dini dözümlülük və multikulturalizmin təbliği” layihəsi çərçivəsində təlimlər keçirilib.

Təlimdə AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun baş elmi işçisi, dos. Aydın Əlizadə və AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, dos. Radif Mustafayev "Dini mətnləri necə anlamalıyıq", "Epistemioloji problem. Din sosial və fövqəltəbii fenomen kimi (elmi, fəlsəfi və dini yanaşmalara baxış)" mövzuları ətrafında çıxış ediblər. Təlimdə gənclər üçün dini şüurun sosial-psixoloji reabilitasiyası işini həyata keçirmək, onların dini dözümlülük və multikulturalizm sahələrində bilik və bacarıqlarının inkişaf etdirilməsinin vacib olduğu diqqətə çatdırılıb.

Qeyd edək ki, layihə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə



# İlahiyyat İnstitutunun maarifləndirmə tədbiri

Azərbaycan İlahiyyat İnstitutunun təşəbbüsü və Suraxanı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə AİI-yə yüksək intellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə icra hakimiyyətinin Akt zalında 22 aprel 2022-ci il tarixdə maarifləndirici xarakterli tədbir keçirilib.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Suraxanı rayonundan Milli Məclisə seçilmiş deputatlar – Afət Həsənova, Sevinc Fətəliyeva, Etibar Əliyev, rayon prokuroru Rəşid Mahmudov, Dövlət Təhlükəsizlik Xidməti Suraxanı Rayon İdarəsinin rəisi Rauf Məmmədov, rayon icra hakimiyyətinin başçısı yanında Şura üzvləri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan İlahiyyat İnstitutunun nümayəndələri, rayonun din xadimləri, təhsil müəssisələrinin rəhbərləri və abituriyentlər iştirak ediblər.

Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin Suraxanı rayonu, Heydər Əliyev parkında ucaldılan abidəsini ziyarət edərək, abidə önünə gül dəstələri düzüblər.

Tədbirdə çıxış edən Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. O qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutu Prezident cənab İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən yaradılıb. Rektor İnstitutun istifadəyə verilmiş yeni inzibati binasının açılış mərasimində cənab İlham Əliyevin iştirak etməsini ölkə başçısının dövlət-din münasibətlərinə göstərdiyi diqqət və qayğının bariz nümunəsi kimi vurğulayıb.

AİI rəhbəri daha sonra ali təhsil müəssisəsinin məqsəd və hədəfləri haqqında ətraflı məlumat verib.

Tədbirdə Milli Məclisin deputatları Sevinc Fətəliyeva, Etibar Əliyev, rayon prokuroru Rəşid








Mahmudov, Dövlət Təhlükəsizlik Xidməti Suraxanı Rayon İdarəsinin rəisi Rauf Məmmədov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi Aqil Əlisoy, "Höccət İbn Həsən" Məscidi Dini İcmasının sədri Allahverən Məmmədzadə, B.Qulamoğlu adına 285 №-li tam orta məktəbin direktoru Səfurə Rəhimova, E.Cəfərov adına 118 №-li tam orta məktəbin direktoru Nizaməddin Ağcayev, Suraxanı RİHB-in Əmircan qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi, Şəhid atası Əlixan Əliyev, Əmircan Bələdiyyəsinin sədri Cəmilə Ağayeva çıxış ediblər. Çıxışlarda təhsilə, onun inkişafına dövlətimiz tərəfindən xüsusi diqqət yetirildiyi, elmin, təhsilin maddi-texniki bazasının inkişaf etdirildiyi, bu sahənin ən müasir və qabaqcıl texnologiyalarla təmin olunduğu vurğulanıb. Həmçinin yeniyetmə və gənclərin mütərəqqi dünyagörüşə malik şəxsiyyət kimi formalaşmaları, milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər ruhda böyümələri istiqamətində görülən işlər haqqında məlumat verilib.

AİI Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova çıxışında ali təhsil müəssisəsinə qəbul prosesi və qaydaları barədə ətraflı məlumat verib.

Daha sonra AİI-nin ictimai fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Tədbirin yekununda rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov tədbirdə iştirak etdiklərinə görə qonaqlara dərin minnətdarlığını bildirib və Prezident cənab İlham Əliyevin rəhbərliyi altında dövlətimiz tərəfindən Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində həyata keçirilən işlərdən danışıb. O, bir qrup abituriyentin iştirakı ilə AİI-yə ekskursiyanın təşkil olunması ilə bağlı təklif irəli sürüb. Məqsəd – din sahəsinə maraq göstərən Suraxanı rayon şagirdlərinin ilahiyyat sahəsində savadlı mütəxəssis kimi yetişdirilmələri üçün AİI-də təhsilə cəlb olunmalarıdır.

# Cəlilabad rayonunda abituriyentlərlə görüş

Azərbaycan İlahiyyat İnstitutu 2022-2023-cü tədris ili üzrə ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərinə başlayıb. İnstitut heyətinin növbəti səfəri 26 aprel 2022-ci il tarixdə Cəlilabad rayonuna olub.

Cəlilabad Rayon İcra Hakimiyyəti başçısının müavini Elnarə Həsənova tədbiri giriş sözü ilə açaraq qeyd edib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. O, AİI-nin yeni binasının açılış mərasiminə diqqət çəkərək bildirib ki, respublikamızın təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülüb və proses hazırda da davam edir. Bu sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsilin böyük nailiyyətlər qazanmasına gətirib çıxarır.






AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. M.Mürsəlov Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını, eyni zamanda, ali təhsil müəssisəsinin yeni binasının açılış mərasimində ölkə başçısının şəxsən iştirakını buna bariz nümunə kimi göstərib. Nəzərə çatdırıb ki, İnstitutun yeni binasında tələbələr üçün lazımi şərait yaradılıb.

Prorektor ali təhsil müəssisəsinin məqsəd və hədəfləri haqqında da ətraflı məlumat verib. M.Mürsəlov bildirib ki, AİI-yə qəbul olunmuş hər abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq.

İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müdiri Anar Qafarov tələbələrin daha yaxşı təhsil almaları üçün ali təhsil müəssisəsində yaradılan şəraitdən söhbət açıb. Anar Qafarov, həmçinin tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. Qeyd edib ki, İnstitut kollektivi gənclərin zəngindünyagörüşlü, dərin dini və dünyəvi biliklərə yiyələnən bacarıqlı kadrlar kimi yetişmələri istiqamətində səylə çalışır.

AİI Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. O, müəssisənin fəaliyyəti, səfərləri, tələbələr üçün təşkil edilən yay və qış məktəbləri barədə danışıb.



Tədbirdə abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

# İlahiyyat İnstitutunun əməkdaşı konfransda məruzə edib




Özbəkistan Beynəlxalq İslam Akademiyasının (ÖBİA) təşkilatçılığı ilə 8 aprel 2022-ci il tarixdə "Dinşünaslığın aktual problemləri" adlı Respublika elmi-praktik konfransı keçirilib. Konfransda Azərbaycan İlahiyyat İnstitutu Tədris şöbəsinin müdiri Zərifə Əliyeva "Azərbaycanda dini ali təhsil müəssisələri: Azərbaycan İlahiyyat İnstitutu" mövzusunda çıxış edib.

Tədbir "ZOOM" platforması üzərindən onlayn formatda keçirilib.

Konfransda Özbəkistan Beynəlxalq İslam Akademiyasının rektoru Muzaffar Kamilov, Özbəkistan Müsəlmanları İdarəsi sədrinin müavini Utkirbek Xasanboyev, UNESCO üzrə Özbəkistan Milli Komissiyasının baş katibinin müavini Sayıdafzal Mallaxonov, İmam Buxari Beynəlxalq Araşdırma Mərkəzinin direktoru Şovosil Ziyodov, Daşkənd İslam İnstitutunun rektoru Uyqun Qafurov, Nur Mübarək Misir İslam Mədəniyyəti Universitetinin və digər ali təhsil müəssisələrinin və təşkilatlarının mütəxəssisləri, professor və müəllim heyəti, doktorantları və magistrləri iştirak ediblər.

Zərifə Əliyeva məruzəsində Azərbaycan İlahiyyat İnsitututun yaranması, missiyası, fəaliyyəti, tədris prosesinin təşkili, təhsil proqramları, xarici əlaqələri, eləcə də İnstitutun əldə etdiyi nailiyyətləri və gələcək perspektivləri haqqında danışıb.

Qeyd edək ki, AİI haqqında hazırlanan təqdimat konfrans iştirakçılarının böyük marağına səbəb olub.

Məlumat üçün bildirək ki, sözügedən konfrans Beynəlxalq İslam Akademiyası UNESCO-nun "Dinşünaslıq və dünya dinlərinin müqayisəli tədqiqi" departamentinin təşkil etdiyi sayca 14-cü tədbirdir.

Vebinar qarşılıqlı müzakirə və sual-cavabla davam edib.

# Quba rayonunda abituriyentlərlə görüş

Azərbaycan İlahiyyat İnstitutu 2022-2023-cü tədris ili üzrə ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərinə davam edir. İnstitut heyətinin növbəti səfəri 29 aprel 2022-ci il tarixdə Quba rayonuna olub.

Quba Rayon Heydər Əliyev Mərkəzində keçirilən görüşdə İlahiyyat İnstitutunun fəaliyyəti, tədris olunan ixtisaslar və qəbul qaydaları barədə ətraflı məlumat verilib.

Quba Rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Abasova bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Respublikamızın təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülüb və proses hazırda da davam edir.

Bu sahədə həyata keçirilən geniş miqyaslı tədbirlər ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsilin böyük nailiyyətlər qazanmasına gətirib çıxarır.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. Bildirilib ki, Prezident İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən Azərbaycan İlahiyyat İnstitutunun yaradılması, eyni zamanda, ali təhsil müəssisəsinin yeni binasının açılış mərasimində ölkə başçısının şəxsən iştirakı buna bariz nümunədir. İnstitutun yeni binasında tələbələr üçün lazımi şərait yaradılıb.

M.Mürsəlov ali təhsil müəssisəsinin məqsəd və hədəfləri haqqında da ətraflı məlumat verərək qeyd edib ki, AİI-yə qəbul olunmuş hər abituriyent ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq.

İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müdiri Anar Qafarov tələbələrin daha yaxşı təhsil almaları üçün ali təhsil müəssisəsində yaradılan şəraitdən söhbət açıb, həmçinin tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. Qeyd edilib ki, İnstitut kollektivi gənclərin zəngin dünya görüşlü, dərin dini və dünyəvi biliklərə yiyələnən bacarıqlı kadrlar kimi yetişmələri istiqamətində səylə çalışır.

AİI Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. O, müəssisənin fəaliyyəti, səfərləri, tələbələr üçün təşkil edilən yay və qış məktəbləri barədə danışıb.

Tədbirdə abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

# "Milli-mənəvi və mədəni irsimizin təşəkkülündə Şuşa" mövzusunda respublika elmi konfransı keçirilib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı 5 may 2022-ci il tarixdə "Milli-mənəvi və mədəni irsimizin təşəkkülündə Şuşa" mövzusunda respublika elmi konfransı keçirilib.

Konfransda Vətən müharibəsində şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra DQİDK-nin sifarişi ilə çəkilmiş "Şuşa – mənəviyyat incisi" filmi nümayiş olunub.

Dosent Anar Qafarovun moderatorluğu ilə baş tutan plenar iclasda AİI rektoru Aqil Şirinov açılış nitqi ilə çıxış edib. Rektor AİI-nin yeni inzibati binasında ilk tədbirin məhz Şuşa mövzusunda konfransa həsr olunmasının önəminə diqqət çəkərək, məmnunluğunu ifadə edib. Konfransın ulu öndərin anadan olmasının ildönümünə təsadüf etdiyini və Heydər Əliyevin Şuşa ilə bağlı fəaliyyətini diqqətə çatdıran rektor Vətən Müharibəsində şəhid olanları yad edib, qazilərə Allahdan şəfa diləyib.

DQİDK-nin sədri Mübariz Qurbanlı çıxışına Vətən Müharibəsi şəhidlərini yad etməklə başlayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Şuşa İli" ilə bağlı Sərəncamından irəli gələrək təşkil olunan konfransın işini yüksək qiymətləndirib.

M.Qurbanlı Ulu Öndər Heydər Əliyevin tarixboyu milli-mənəvi dəyərlərimizin inkişafındakı rolu barədə danışaraq dahi şəxsiyyətin yüksək xidmətlərini qeyd edib.

Həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşmüş insanların doğma torpaqlarına qayıdışının təmin edilməsi üçün işğaldan azad olunmuş ərazilərdə aparılan geniş quruculuq işlərinə, Heydər Əliyev Fondunun xalqımıza məxsus mədəni-dini irsin yenidən dirçəldilməsi istiqamətindəki fəaliyyətinə diqqət çəkib.

Şuşanın Azərbaycan tarixindəki müstəsna yerini vurğulayan Komitə sədri işğaldan sonra dağıdılmış, viran olmuş şəhərin yenidən bərpası ilə burada elm adamlarının, tarixi şəxsiyyətlərin yetişəcəyinə ümidvar olduğunu bildirib.

(Ardı 32-ci səhifədə)







# "Milli-mənəvi və mədəni irsimizin təşəkkülündə Şuşa" mövzusunda respublika elmi konfransı keçirilib



(Əvvəli 31-ci səhifədə)

O, Aİİ tələbələrinin və əməkdaşlarının milli-mənəvi dəyərlərin təbliği və təşviqi istiqamətində öz sözlərini deyəcəklərinə əmin olduğunu vurğulayıb.

Aİİ-nin fəaliyyətinə toxunan sədr bu il ilk məzun buraxılışı olacaq ali təhsil müəssisəsinə uğurlar arzulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Fuad Nurullayev konfrans iştirakçılarını salamlayıb. O, Azərbaycanda hökm sürən multikultural dəyərlərə, tolerantlığa diqqət çəkərək, Aİİ-nin din təhsili sahəsində fəaliyyətini yüksək qiymətləndirib. Şuşanın azad olunmasında şəhid olanları rəhmətlə anaraq, qazilərə şəfa diləyib.

Millət vəkili Ceyhun Məmmədov Aİİ-nin yeni inzibati binasında konfransın təşkilini yüksək qiymətləndirərək onun əhəmiyyətini vurğulayıb. Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində azad olunan torpaqlarımızın tarixboyu hər zaman öz alçaqlığı, qəddarlığı ilə seçilən erməni vandalları tərəfindən necə talan olunduğunu vurğulayıb. C.Məmmədov Şuşanın işğaldan azad olunduqdan sonra bərpası ilə bağlı məsələləri diqqətə çatdırıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Şuşanın işğal dövründə talan edilməsi və abidələrin dağıdılması məsələlərinə toxunub. İcraçı direktor Şuşanın bərpası ilə bağlı fəaliyyət göstərən komissiyanın üzvü olduğunu və bütün prosesin birbaşa Şuşa şəhərinin qorunmasına, yenidənqurulmasına, öyrənilməsinə, inkişafına və təbliğinə yönəldiyini vurğulayıb. R.Həsənov Mənəvi Dəyərlərin Təbliği Fondu və Mədəniyyət Nazirliyi ilə birlikdə nəşr etdirdikləri ingilis və Azərbaycan dillərində olan Şuşa haqqında kitabı Aİİ-yə hədiyyə edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov qeyd edib ki, uzun illər torpaqlarımızın işğalından aldığımız sarsıntı ilə böyüdük. Bugünkü nəsil xoşbəxtdir ki, Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan Zəfər Gününü gördülər. M.İsmayılov hazırda Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında Azan səsinin eşidildiyini qeyd edib.

İlahiyyat fakültəsinin məzunu, 44 günlük Vətən Müharibəsinin şəhidi Vüqar Məmmədoun anası Əsmər Məmmədova oğlu haqqında danışarkən qeyd edib ki, Vüqar Qarabağın azadlığı uğrunda canından keçib, müharibənin 14-cü günü şəhid olub. Aprel döyüşlərində iştirak edən Vüqar son arzusunu yerinə yetirərək kəşfiyyatçı kimi döyüşlərə qoşulub. Şəhid anası qeyd edib ki, oğlunun ən böyük arzusu Şuşanı azad görmək idi. Şükürlər olsun ki, onun bu arzusu gerçəkləşdi.



*Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı ilə "Milli-mənəvi və mədəni irsimizin təşəkkülündə Şuşa" mövzusunda respublika elmi konfrans panellərlə davam edib.*

Panellərdə "Qarabağnamələrdə Şuşa şəhəri", "Azərbaycanın şuşalı qadın şair-ədibləri: Xurşidbanu Natəvan və Fatimə Kəminə", "Şuşanın dini irsi: məscidləri, dini təhsili, ilahiyyatçıları", "Üzeyir Hacıbəyli tənqidçi-maarifçi kimi (felyetonlar əsasında)", "Yuxarı Gövhərağa məscidinə məxsus epiqrafik abidələrdəki yazıların tədqiqi", "Difai" partiyasının Qarabağ və Şuşa – "Qarabağ Birlik Məclisi" komitələri və onların fəaliyyəti haqqında", "Mir Möhsün Nəvvab yaradıcılığı Qarabağ ədəbi-mədəni mühiti müstəvisində", "Şuşanın böyük tarixi", "Molla Pənah Vaqifin Qarabağ sarayı ilə bağlılığı rəvayətlər işığında", "Şuşa – məkanın poetikası", "Azərbaycan tarixi-mədəni mühitində Şuşa", "Şuşa – Azərbaycanın mədəniyyət və incəsənət beşiyi", "Şuşalı ictimai-siyasi xadimlərin Azərbaycanın inkişaf tarixində rolu", "Şuşanın milli-mənəvi irsimizin təşəkkül və inkişafında rolu (musiqi incəsənətinin beşiyi)" mövzusunda məruzələr dinlənilib.

# Heydər Əliyevin 99-cu ildönümünə həsr edilmiş tədbir



Azərbaycan İlahiyyat İnstitutunun müəllim və tələbələrinin iştirakı ilə 10 may 2022-ci il tarixdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş tədbir keçirilib.

Aİİ rektoru, dosent Aqil Şirinov ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk gündən etibarən, milli-mənəvi və dini dəyərlərimizin qorunması istiqamətində gördüyü mühüm işlərdən bəhs edib. A.Şirinov bildirib ki, ölkəmiz müstəqillik qazandığı illərdən tolerantlıq ənənələrinin qorunub-saxlanılması və inkişafı, o cümlədən yeni dini ibadət yerlərinin inşası, mövcud olanların əsaslı təmiri və yenidənbərpası istiqamətində çoxsaylı işlər görülüb. O, sovet dövründə tamamilə dağıdılan Bibiheybət məscidinin 1997-ci ildə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə yenidən bərpa edildiyini xüsusi vurğulayıb.

A.Şirinov daha sonra ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə ölkədə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini dəyərlərin qorunması istiqamətində qətiyyətli addımlar atıldığını bildirib. Qeyd edib ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi mühüm islahatların davamı olaraq, hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin layiqli siyasət yürütməsi nəticəsində 44 günlük Vətən Müharibəsində tarixi qələbə qazandıq. Müzəffər Ordumuz mədəniyyət paytaxtımız Şuşanı işğalçılardan azad etdi. Rektor Aİİ-nin yeni binasında ilk respublika konfransının Şuşa şəhərinin 270 illiyinə həsr olunduğuna diqqət çəkib.



Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) A.A.Bakıxanov adına Tarix İnstitutunun icraçı direktoru, tarix üzrə fəlsəfə doktoru, professor Cəbi Bəhramov çıxış edərək, Heydər Əliyevin sovet dövrü və müstəqillik illərindəki xidmətləri barədə arxiv sənədlərinə istinadən məlumat verib. C.Bəhramov Ulu Öndərin hakimiyyəti illərində qarşılaşdığı çətinliklərə toxunaraq, əzmlə və səbirlə yürütdüyü siyasətin hazırda cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini vurğulayıb. Heydər Əliyevin hakimiyyəti dövründə xarici ölkələrlə qurulan diplomatik münasibətlərin bu gün də dövlətçilik siyasətində müsbət istiqamətdə təsirini diqqətə çatdıran C.Bəhramov Ümummilli Liderin siyasi və dövlətçilik irsi ilə bağlı daim araşdırmalar aparıldığını vurğulayıb.



# Şəki rayonunda maarifləndirmə tədbiri



Azərbaycan İlahiyyat İnstitutunun təşəbbüsü və Şəki Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə AİI-yə yüksək intellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə 12 may 2022-ci il tarixdə maarifləndirmə tədbiri keçirilib.

Tədbirdə giriş nitqi ilə çıxış edən Şəki Rayon İcra Hakimiyyətinin nümayəndəsi Sadiq Yusifov bildirib ki, ölkə başçısının rəhbərliyi altında ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. O qeyd edib ki, təhsillə bağlı dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, yeni təhsil müəssisələrinin açılması, onların müasir avadanlıqlarla təchiz edilməsi Azərbaycanın gələcək inkişafı üçün atılan mühüm addımlardandır.

Şəki-Zaqatala Regional Təhsil İdarəsinin nümayəndəsi Elxan Abdullayev çıxışında ölkəmizdə uşaqların hərtərəfli inkişafı, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi və keyfiyyətli təhsil almaları üçün lazımi şəraitin yaradıldığını bildirib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. O qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutu Prezident cənab İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamı əsasında yaradılıb. Rektor İnstitutun istifadəyə verilmiş yeni inzibati binasının açılış mərasimində cənab İlham Əliyevin iştirak etməsini ölkə başçısının dövlət-din münasibətlərinə göstərdiyi diqqət və qayğının bariz nümunəsi kimi vurğulayıb.

AİI rəhbəri daha sonra İnstitutun məqsəd və hədəfləri haqqında ətraflı məlumat verib.

Ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov çıxışında abituriyentlərə İnstituta qəbul şərtləri barədə məlumat verib. Bildirib ki, AİI-də magistratura və doktorantura səviyyələri üzrə də qəbul aparılır. O, İnstituta qəbul olunacaq hər abituriyentin dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacağını vurğulayıb. E.Orucov xarici dillərə yiyələnmək imkanları; təqaüd proqramları; xaricdə təhsil imkanları; tələbələrin sosial həyatı; yay və qış məktəbləri haqqında da ətraflı bəhs edib.

Daha sonra AİI-nin ictimai fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

AİI-nin nümayəndə heyəti Şəki İslam Kollecini ziyarət edib. Kollecdə Qafqaz Müsəlmanlar İdarəsinin (QMİ) Şəki-Oğuz bölgəsi üzrə qazisi Kamran Məmmədov, təhsil müəssisəsinin direktoru Abdurrahman Nuri və QMİ-nin təhsil işləri üzrə koordinatoru Fuad Quliyevlə görüş təşkil olunub. AİI rektoru Aqil Şirinova kollec haqqında geniş məlumat verilib, tədris prosesi, keçirilən fənlər barədə danışılıb.

# Tələbələr Heydər Əliyev Mərkəzini ziyarət ediblər

Azərbaycan İlahiyyat İnstitutunun tələbələri ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə bağlı 13 may 2022-ci il tarixdə Heydər Əliyev Mərkəzini ziyarət ediblər.




Ziyarət zamanı tələbələrə Mərkəzlə bağlı geniş məlumat verilib. Qeyd edilib ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının, Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və fotoarxiv sənədlər, eləcə də müxtəlif eksponatlarla tanış olublar.

# Zaqatalada maarifləndirmə tədbiri

Azərbaycan İlahiyyat İnstitutunun təşəbbüsü və Zaqatala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Aİİ-yə yüksək intellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə 14 may 2022-ci il tarixdə maarifləndirmə tədbiri keçirilib.

Heydər Əliyev Mərkəzində təşkil edilən tədbirdə Zaqatala Rayon İcra Hakimiyyətinin nümayəndəsi Ramin Həsənov giriş nitqi ilə çıxış edərək, müasir dövlətimizin qurucusu, ümummilli lider Heydər Əliyevin elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşdığını, Ulu Öndərin bu siyasətini hazırda Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyini vurğulayıb. Bildirib ki, cənab Prezidentin rəhbərliyi ilə ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir.



Şəki-Zaqatala Regional Təhsil İdarəsinin nümayəndəsi Lalə Laçınova və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQDK) Zaqatala bölgəsi üzrə şöbə müdiri İlqar Vəliyev çıxışlarında ölkəmizdə gənclərin zəngin dünyagörüşlü, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi və keyfiyyətli təhsil almaları üçün İlahiyyat İnstitutunda lazımi şəraitin yaradıldığını bildiriblər.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. O qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutu Prezident cənab İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən yaradılıb. Rektor İnstitutun istifadəyə verilmiş yeni inzibati binasının açılış mərasimində cənab İlham Əliyevin iştirak etməsini ölkə başçısının dövlət-din münasibətlərinə göstərdiyi diqqət və qayğının bariz nümunəsi kimi vurğulayıb.

Aİİ rəhbəri daha sonra ali təhsil müəssisəsinin məqsəd və hədəfləri haqqında ətraflı məlumat verib.

Ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov çıxışında abituriyentlərə İnstituta qəbul şərtləri barədə məlumat verib. Bildirib ki, Aİİ-də magistratura və doktorantura səviyyələri üzrə də qəbul aparılır. O, İnstituta qəbul olunacaq hər abituriyentin dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacağını vurğulayıb. E.Orucov xarici dillərə yiyələnmək imkanları; təqaüd proqramları; xaricdə təhsil imkanları; tələbələrin sosial həyatı; yay və qış məktəbləri haqqında da ətraflı bəhs edib.

Daha sonra Aİİ-nin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Aİİ-nin nümayəndə heyəti səfər çərçivəsində Zaqatala İslam Kolleci və Əliabad İslam Kollecində görüşlər keçirib.

## Quran qiraəti yarışması

Azərbaycan İlahiyyat İnstitutunda 16 may 2022-ci il tarixdə ənənəvi olaraq hər il təşkil edilən "Quran qiraəti" müsabiqəsi keçirilib.

Müsabiqədə Aİİ İlahiyyat fakültəsinin tələbələri iştirak ediblər. İlahiyyat İnstitutunun prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov, İlahiyyat fakültəsinin dekan müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Kövsər Tağıyev, Dillər və ictimai fənlər kafedrasının müəllimi Ənvər Mustafayev münsiflər heyətində təmsil olunublar.

Aİİ-nin elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov müsabiqənin əhəmiyyətini vurğulayaraq, Qurani-Kərimi gözəl oxumaqla yanaşı, həm də mənasını anlamağın vacibliyini bildirib. M.Mürsəlov ali təhsil müəssisəsində mütəmadi olaraq istedadlı və bacarıqlı tələbələrin üzə çıxarılması istiqamətində müxtəlif müsabiqələrin davamlı olaraq həyata keçiriləcəyini nəzərə çatdırıb. Belə müsabiqələrin tələbələrə təcrübə qazandırdığını, inkişafına imkan verdiyini bildirib.




Tələbələr tərəfindən maraqla qarşılanan müsabiqədə qaliblər münsiflər heyətinin qiymətləndirməsi əsasında müəyyənləşib. Beləliklə, "Quran qiraəti" müsabiqəsində III kurs tələbəsi Murad Kərəmov 1-ci yerə, III kurs tələbəsi Əmrah Eminov 2-ci yerə, III kurs tələbəsi Azanə Əhmədova 3-cü yerə layiq görülüblər.

Müsabiqənin qalibləri mükafatlandırılıb və iştirakçılara təşəkkürnamələr təqdim edilib.

# REKTOR TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQDK) tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) rektoru, dosent Aqil Şirinov 17 may 2022-ci il tarixdə tələbələrlə görüş keçirib.

Aİİ rektoru, dosent Aqil Şirinov tələbələrə ali təhsil müəssisəsinin yeni binasında uğurlar arzulayıb. İnstitutun dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu diqqətə çatdıran rektor tələbələrə qarşıda duran məqsəd və hədəflərdən bəhs edib. A.Şirinov təhsilalanlara dərslərində fəal olmağı, dərin biliklərə yiyələnməyi tövsiyə edib.



İnstitut rəhbəri daha sonra qeyd edib ki, təhsilalanların yüksək dini və dünyəvi elmlərə yiyələnmələri üçün AİI-də təhsil sistemi müasir dövrün tələblərinə uyğun qurulub.

Ali təhsil müəssisəsinin rəhbəri daha sonra tələbələrə tövsiyələrini bildirib, gənclər üçün təşkil olunacaq yarışlar və səfərlər haqqında məlumat verib.

AİI-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Mübariz Camalov bildirib ki, tələbələrin təhsil dövründə mükəmməl öyrəndikləri gələcəyə etibarlı yatırımdır. Azərbaycan xalqının bu sahədə yüksəkixtisaslı, savadlı, milli məfkurəyə sahib, dürüst kadrlara ehtiyacı var.

Tədbirdə tələbələrin tədris prosesi, təlim, təhsil və sosial məsələlər ətrafında sualları cavablandırılıb.

# ABŞ-li qonaqlar İlahiyyat İnstitutunu ziyarət ediblər

“G20” Dinlərarası Forumun regional hazırlıq iclasında iştirak etmək üçün Azərbaycanda səfərdə olan – Sonuncu Gün Müqəddəslərinin İsa Məsihi Kilsəsinin ümumi səlahiyyətlisi Erix Kopişke və “Stirling” Fondunun Baş icraçı direktoru Edvard B. Rou 20 may 2022-ci il tarixdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun qonağı olublar.



AİI-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Mübariz Camalov qonaqları ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. M.Camalov İnstitutun fəaliyyəti, ölkədaxili və xarici əlaqələri, ölkəmizin multikultural və tolerantlıq ənənələrinin təbliğindəki rolu, gələcək hədəfləri barədə ətraflı bəhs edib.

AİI İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova ali təhsil müəssisəsində mövcud ixtisaslar və təhsil pillələri haqqında məlumat verib. Qeyd edib ki, AİI-də bakalavirat, magistratura və doktorantura pillələri üzrə tədris aparılır.

Təqdim olunan ətraflı məlumata görə minnətdarlığını ifadə edən Erix Kopişke təhsil və elmi-tədqiqat sahəsində ikitərəfli əlaqələrin qurulmasının mümkünlüyünü vurğulayıb.

Görüş birgə əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

# Gəncə şəhərində abituriyentlərlə görüş

***Azərbaycan İlahiyyat İnstitutu 2022-2023-cü tədris ili üzrə ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərini davam etdirir. İnstitut heyətinin növbəti səfəri 17 may 2022-ci il tarixdə Gəncə şəhərinə olub.***

Tədbirdə AİI-nin fəaliyyəti, tədris olunan ixtisaslar və qəbul qaydaları barədə ətraflı məlumat verilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Gəncə bölgəsi üzrə şöbə müdiri Həsən Məmmədov giriş nitqi ilə çıxış edərək, ölkəmizdə gənclərin zəngindünyagörüşlü, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi və keyfiyyətli təhsil almaları üçün İlahiyyat İnstitutunda lazımi şəraitin yaradıldığını bildirib.

H.Məmmədov bildirib ki, dünyanın bəzi ölkələrində dini-siyasi qarşıdurmalar və iğtişaşlar hökm sürdüyü bir zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin multikultural və həmrəylik dəyərlərinin təbliği istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində ölkəmizdə tolerantlıq yüksək səviyyədədir.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. O bildirib ki, Prezident İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən Azərbaycan İlahiyyat İnstitutunun yaradılması, eyni zamanda, ali təhsil müəssisəsinin yeni inzibati binasının açılış mərasimində ölkə başçısının şəxsən iştirakı bunun bariz nümunəsidir. İnstitutun yeni binasında tələbələr üçün lazımi şərait yaradılıb.

M.Mürsəlov ali təhsil müəssisəsinin məqsəd və hədəfləri haqqında da ətraflı məlumat verərək qeyd edib ki, AİI-yə qəbul olunan hər abituriyent ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq.

İlahiyyat İnstitutu Dillər və ictimai fənlər kafedrasının müəllimi Ənvər Mustafayev AİI-də ərəb dilinin tədrisi haqqında geniş məlumat verib. Daha sonra ali təhsil müəssisəsində tədris olunan ərəb dili dərslikləri, tələbələrin fənni mükəmməl mənimsəmələri üçün təşkil olunan əlavə pulsuz dərslər və kurslar barədə ətraflı danışıb. Ə.Mustafayev bildirib ki, İnstitut kollektivi gənclərin zəngindünyagörüşlü, dərin dini və dünyəvi biliklərə yiyələnən bacarıqlı kadrlar kimi yetişmələri istiqamətində səylə çalışır.

AİI Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. O, müəssisənin fəaliyyəti, səfərləri, tələbələr üçün təşkil edilən yay və qış məktəbləri haqqında ətraflı danışıb.

Tədbirdə abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, həmçinin ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.



# Rektor tələbələrlə görüşüb



Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov 19 may 2022-ci il tarixdə ali təhsil müəssisəsində fəaliyyət göstərən peşə hazırlığı kursunda iştirak edən tələbələrlə görüş keçirib.

Görüşdə kursun gedişatı, ortaya çıxa biləcək nöqsanlar haqqında müzakirələr aparılıb, tövsiyələr verilib. Təhsilalanlar proqram barədə ətraflı məlumat verib, təkliflərini səsləndiriblər.

Aİİ rektoru Aqil Şirinov tələbələrə uğurlar arzulayıb. Ali təhsil müəssisəsinin rəhbəri əsas məqsədin yüksək intellektə, geniş dünyagörüşünə malik, sağlamdüşüncəli, Vətənini sevən mütəxəssislər hazırlamaq olduğunu qeyd edib.

İnstitutun dövlətin diqqət və qayğısı ilə tam əhatə olunduğunu diqqətə çatdıran rektor vurğulayıb ki, tələbələrimiz bu imkanlardan istifadə etməli, biliklərini təkmilləşdirərək yüksəkixtisaslı kadrlar kimi yetişməlidirlər.

A.Şirinov daha sonra bildirib ki, tələbələr ölkəmizin inkişafı, daha da çiçəklənməsi naminə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməli, milli-mənəvi dəyərlərimizi birləşdirici ünsür olaraq cəmiyyətə təbliğ etməlidirlər.

Tədbirdə tələbələri maraqlandıran suallar ətrafında fikir müzakirəsi aparılıb.

# Lənkəranda abituriyentlərlə görüş



Azərbaycan İlahiyyat İnstitutu 2022-2023-cü tədris ili üzrə ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərini davam etdirir. İnstitut heyətinin növbəti səfəri 24 may 2022-ci il tarixdə Lənkəran şəhərinə olub.

Görüşdə abituriyentlər, yuxarı sinif şagirdləri və müəllimlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbə müdiri Qağayı Məmmədov açıb. O, İnstitut heyətinin bölgələrdə maarifləndirici görüşlərinin yüksək əhəmiyyətindən danışıb.

Aİİ-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. İnstitutun yeni binasında tələbələr üçün lazımi şərait yaradıldığını vurğulayan prorektor ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, mövcud ixtisaslar, həmçinin ali təhsil müəssisəsinin tədris prosesi haqqında geniş məlumat verib. O qeyd edib ki, İnstituta qəbul olunmuş hər bir abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq. M.Mürsəlov tələbələrin pulsuz yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarının təşkili və digər üstünlüklərə sahib olacaqlarını bildirib.

İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müdiri Anar Qafarov tələbələrin daha yaxşı təhsil almaları üçün ali təhsil müəssisəsində yaradılan şəraitdən söhbət açıb, həmçinin tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. Qeyd edilib ki, İnstitut kollektivi gənclərin zəngindünyagörüşlü, dərin dini və dünyəvi biliklərə yiyələnən bacarıqlı kadrlar kimi yetişmələri istiqamətində səylə çalışır.

Aİİ Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. O, müəssisənin fəaliyyəti, səfərləri, tələbələr üçün təşkil edilən yay və qış məktəbləri barədə danışıb.

Tədbirdə abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə Aİİ-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

# Gürcüstanlı din xadimləri İlahiyyat İnstitutunda



Ölkəmizdə səfərdə olan Gürcüstanın din xadimlərindən ibarət nümayəndə heyəti 23 may 2022-ci il tarixdə Azərbaycan İlahiyyat İnstitutunun qonağı olub.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov qonaqları İnstitutda görməkdən məmnun olduğunu vurğulayıb, din xadimlərindən ibarət nümayəndə heyətinin ölkəmizə səfərini təşkil edənlərə təşəkkürünü bildirib.

Ali təhsil müəssisəsi haqqında geniş məlumat verən M.Mürsəlov AİI-nin yaradılması, fəaliyyəti haqqında söhbət açıb. İnstitutda təhsilin ödənişsiz əsaslarla həyata keçirildiyini, tələbələrin geyim, yemək və yataqxana xərcləri ilə təmin olunduğunu nəzərə çatdırıb. Gənclərin sağlam ruhda tərbiyə olunmalarının vacibliyini bildirən M.Mürsəlov qeyd edib ki, dini biliklərə yanaşı dünyəvi biliklərə də yiyələnən mütəxəssislərə ehtiyacımız var.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Gündüz İsmayılov dövlət-din münasibətləri və hazırda ölkəmizdə din sahəsində mövcud olan vəziyyət haqqında məlumat verib. G.İsmayılov yüksələn xətlə inkişaf edən dövlət-din münasibətlərinə diqqət çəkərək, bu siyasətin bariz nümunəsi olan Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını xüsusi vurğulayıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) icraçı direktoru Mehman İsmayılov təmsil etdiyi müəssisə haqqında geniş məlumat verib. Bildirib ki, Fond mənəvi dəyərlərin qorunması, inkişafı, o cümlədən, din-dövlət münasibətlərinin inkişafı istiqamətində fəaliyyət göstərir. Fond vətəndaşlara dini etiqad azadlıqlarının həyata keçirilməsində dəstək göstərir, maarifləndirmə işləri aparır.

Bütün Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) şeyxi Ramin İgidov Azərbaycanın və Gürcüstanın dini qurumları arasında sıx münasibətlərin mövcud olduğunu, ölkələrimiz arasında bu sahədə əlaqələrin daha da möhkəmlənməsi və gələcəkdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsindən əminliyini ifadə edib. Ramin İgidov dünyada radikallığın artdığı indiki dövrdə Azərbaycanın tolerantlıq baxımından müsbət təcrübə yaratdığını söyləyərək, bu təcrübənin öyrənilməsinin vacib olduğunu bildirib.

BGMİ-nin Şərqi Gürcüstan müftisi Etibar Eminov, BGMİ-nin Qərbi Gürcüstan müftisi Adam Shantadze və Ümumi Gürcüstan Müsəlmanları Ali Dini İdarəsinin sədri Mirtağı Əsədov da çıxış edərək, AİI-də olmağın məmnunluğunu ifadə ediblər.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər və gələcək əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparılıb, din xadimlərinin sualları cavablandırılıb.

## Tələbə seminarı

Azərbaycan İlahiyyat İnstitutu Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə ali təhsil müəssisəsində 24 may 2022-ci il tarixdə seminar keçirilib.

“Tələbə seminarları” layihəsi çərçivəsində AİI İlahiyyat fakültəsinin IV kurs tələbəsi Fərid Qasımzadə “İslamla mənəvi terapiya” mövzusunda çıxış edib.

Mövzu haqqında geniş məlumat verən Fərid Qasımzadə bildirib ki, İslam insanların mənəvi ehtiyaclarını təmin edən əsas amildir. O bildirib ki, inanc fərdin düşmüş olduğu bütün depressiv hallarda onun bu vəziyyətdən çıxmasına təkan verən ən güclü motivasiyalardan biridir. Günümüzdə mənəvi böhran və dəyər çatışmazlığı yaşayan insanların bu vəziyyətdən qurtula bilməsində inancın, xüsusilə İslam dininin rolunu qeyd edən məruzəçi Azərbaycan İlahiyyat İnstitutu tələbələrinin də məsuliyyət daşıdığını vurğulayıb.

F.Qasımzadə daha sonra qeyd edib ki, İnstitutun hər bir tələbəsi cəmiyyətin onlara olan ehtiyacını dərk etməli, bu istiqamətdə yüksəkixtisaslı kadr olmaq üçün çalışmalıdır. Əxlaqi və mənəvi keyfiyyətlərə sahib olmanın hər bir ilahiyyatçı üçün zəruriliyini qeyd edən məruzəçi digər mövzulara da toxunub.

Məlumat üçün bildirək ki, AİI Tələbə Gənclər Təşkilatının “Tələbə seminarları” layihəsi çərçivəsində ali təhsil müəssisəsinin tələbələri tərəfindən seminarlar təşkil olunur. Məqsəd tələbələrin bilik səviyyələrinin, bacarıq imkanlarının nümayiş etdirilməsi, elmi fəaliyyətə marağın artırılması, bu yöndə onların fəallığına nail olmaqdır.

Seminar müzakirələrlə davam edib.

# Aİİ rektoru Rusiya Federasiyasına səfər edib



Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov Bolqar İslam Akademiyasının (BİA) dəvəti ilə İdil bulqarlarının İslam dinini qəbul etmələrinin 1100 illiyinə həsr olunmuş beynəlxalq tədbirlərdə iştirak etmək üçün 25 may 2022-ci il tarixdə Rusiya Federasiyası Tatarıstan Respublikasının Bolqar şəhərində səfərdə olub.

A.Şirinov "Rusiya müsəlmanlarının ilahiyyat irsi" mövzusunda IV Beynəlxalq Bolqar Forumunda "Azərbaycanda ali din təhsili və dövlətin dinə qayğısı" mövzusunda məruzə ilə çıxış edib. Aİİ rektoru məruzəsində Azərbaycanda din təhsilinin tarixindən bəhs edərək bildirib ki, ölkəmiz müstəqillik qazandıqdan sonra ali dini təhsil yeni mərhələyə qədəm qoyub: "Prezident İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradıldı və bununla da ölkəmizdə ali dini təhsil yeni mərhələyə qədəm qoydu".

Ölkəmizdə ali dini təhsil verən yeganə müəssisə olan Azərbaycan İlahiyyat İnstitutu haqqında məlumat verən rektor bildirib ki, yüksək elmi təfəkkürə malik olan, milli-mədəni irsi anlayıb dəyərləndirməyi bacaran, mövcud problemlərə dair həll yolları irəli sürən, ilahiyyat sahəsində əsas biliklərə yiyələnən kadrlar hazırlamaq Aİİ-nin qarşısında duran məqsədlərdəndir.

Dövlətin dinə münasibətindən bəhs edən A.Şirinov bu sahədə görülən işlər, həyata keçirilən tədbirlər haqqında da geniş məlumat verib.

Aİİ rektoru Aqil Şirinov səfər çərçivəsində Bolqar İslam Akademiyasının rektoru vəzifəsini icra edən Aynur Timerxanovla görüşüb. Görüşdə Azərbaycan İlahiyyat İnstitutu və BİA arasında əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, konfrans və seminarların təşkili, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılması məsələləri müzakirə edilib.

# "İlahiyyatçılar üçün ərəbcə-azərbaycanca lüğət" nəşr olunub




Azərbaycan İlahiyyat İnstitutu Dillər və ictimai fənlər kafedrasının dosenti Elvüsal Məmmədovun "İlahiyyatçılar üçün ərəbcə-azərbaycanca lüğət" kitabı nəşr olunub.

Lüğətdə, təxminən, 7100-ə yaxın söz və birləşmənin Azərbaycan dilində mümkün qarşılığı verilib. Buraya Quran və hədis leksikası, surələrin adları, Allahın adları, Quranşünaslıq, hədisşünaslıq, üsulşünaslıq, fiqh, İslam fəlsəfəsi, kəlamşünaslıq, təsəvvüf terminləri, İslam tarixi və şəxsiyyətlərlə əlaqəli xüsusi adlar, peyğəmbərin adları, yer adları, İslam etiqadı, ibadət sistemi və digər anlayışlar daxildir.

Lüğətdə sözlər ərəb əlifbasına uyğun sıralanmışdır. Hər hərfə aid artiklli sözlər və birləşmələr artiklsiz sözlər və birləşmələrdən əvvəl əlifba sırası ilə verilmişdir. Leksik korpusun böyük hissəsini Azərbaycan dilində birbaşa tərcüməsi olan sözlər təşkil edir. Birbaşa qarşılığı olmayan sözlərin əvvəlcə ərəbcə versiyasının dilimizin orfoqrafiya qaydalarına uyğun fonem transliterasiyası, daha sonra isə hərfi mənası və izahı verilmişdir.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu kitab və dərsliklərin nəşri ilə bağlı bir sıra layihələr həyata keçirir. "İlahiyyat nəşrləri" adı altında layihəyə müəllimlərimizin və bu sahədə çalışan mütəxəssislərin kitablarının müxtəlif dillərdən tərcümə olunan əsərlərinin nəşri daxildir. Eyni zamanda, İnstitutun qarşısına qoyduğu məqsədlərdən biri də ilahiyyat sahəsindəki problemləri araşdırmaq, beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və onları nəşr etdirməkdir.

# Müstəqillik Gününə həsr olunmuş tədbir

Azərbaycan İlahiyyat İnstitutunda 26 may 2022-ci il tarixdə 28 May – Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə millət vəkilləri Ceyhun Məmmədov, Razi Nurullayev, Qənirə Paşayeva, Bakı Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, dini konfensiya üzvləri və bir sıra ictimaiyyət nümayəndələri iştirak ediblər.

Aİİ rektoru Aqil Şirinov açılış nitqi ilə çıxış edərək, Müstəqillik Günü münasibətilə təbriklərini çatdırıb. Rektor bugünün önəmini vurğulayaraq, uzun illər Çar Rusiyasının əsarətində qalmış, məhrumiyyətlər içində yaşamış Azərbaycan xalqının, nəhayət, 1918-ci ildə qazandığı müstəqilliyinin çətinliklərlə başa gəldiyini vurğulayıb.







Ali təhsil müəssisəsinin rəhbəri daha sonra bildirib ki, həmin dövrdə və çətin şəraitdə Cümhuriyyətin elan olunması və dünyaya tanıdılması istiqamətində Azərbaycan ziyalıları, ideoloqları əllərindən gələni əsirgəməyərək, bu müqəddəs vəzifəni yerinə yetirməyi bacardılar.

Aqil Şirinov xalqımızın müstəqillik uğrunda mübarizə əzminin heç zaman tükənmədiyini, 44 günlük Vətən Müharibəsi zamanı Azərbaycan xalqının nümayiş etdirdiyi şücaətə bütün dünyanın şahid olduğunu diqqətə çatdırıb. Aİİ rektoru vurğulayıb ki, Vətənimizin azadlığı və bütövlüyü uğrunda xalqımızın göstərdiyi milli və dini həmrəylik müharibənin taleyini həll etdi.

A.Şirinov daha sonra hazırda ölkəmizdə dini həmrəyliyin ən yüksək səviyyədə təzahür etdiyini, Azərbaycanımızın inkişafı üçün bundan sonra da birlikdə çalışmalı, səylərimizi birləşdirməli olduğumuzu vurğulayıb.

Tədbirdə Azərbaycan Televiziyası "Azərbaycantelefilm" Yaradıcılıq Birliyinin istehsalı olan "Yaradanın adı ilə" sənədli televiziya filmi nümayiş olunub.

Filmdə Azərbaycan cəmiyyətində tolerantlığa, multikultural dəyərlərə verilən önəmdən bəhs edilir.

Filmdə İslam dini xadimlərinin nümayəndələri ilə yanaşı, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası Dini Qurumunun katibi Arximandrit Aleksi, Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili, Katolik Kilsəsinin nümayəndəsi Toral Ağayev, Bakı Şəhər Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, dinşünas Nəriman Qasımoğlu və başqaları Azərbaycanda dini konfessiyalar üçün yaradılmış lazımi şəraitdən söz açıblar.

Millət vəkilləri Ceyhun Məmmədov, Razi Nurullayev və Qənirə Paşayeva filmin yaradıcı heyətinə və Azərbaycan İlahiyyat İnstitutuna təşəkkürlərini bildiriblər. Gənc nəsil üçün Azərbaycan həqiqətlərini dünyaya nümayiş etdirməkdən ötrü bu istiqamətdə filmlərə ehtiyac olduğunu qeyd ediblər. Millət vəkilləri xalqımızın milli-mənəvi dəyərlərinə, birgəyaşayış ənənələrinə diqqət çəkərək, əsrlərboyu bu mühitin qorunub saxlanılaraq dövrümüzə qədər gəlib-çatdığını, müstəqil Azərbaycan Respublikasının bu ənənələrə sadiq qalaraq daha da inkişaf etdiyini vurğulayıblar.



Bakı Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov filmin yaradıcı heyətini təbrik edərək, belə filmlərin müxtəlif dillərdə çəkilərək dünya ölkələrində nümayişinin əhəmiyyətinə toxunublar.

Azərbaycan Televiziyası Analitik Qrupunun sədri, əməkdar jurnalist Faiq Hüsüyev, "Yaradanın adı ilə" sənədli televiziya filminin rejissoru Elnurə Kazımova, ssenari müəllifi Afaq Vasifqızı Azərbaycan Televiziyasının çəkiliş qrupunun yalnız Bakıda deyil, Azərbaycanın bölgələrində də işlədiklərini bildiriblər. Qubada, Şamaxıda və Qəbələdə çəkiliş aparan yaradıcı heyət kilsələrdə, sinaqoq və məscidlərdə olub, din xadimləri ilə müsahibələr aparıb.

Filmdə Azərbaycandakı ən gözəl dini məbədlər nümayiş olunub.

# Türkiyəli rektorlar İlahiyyat İnstitutunda olublar

Türkiyənin Konya Teknik Universitetinin rektoru Babur Özçelik və Necmeddin Erbakan Universitetinin rektoru Cem Zorlu 26 may 2022-ci il tarixdə Azərbaycan İlahiyyat İnstitutunun qonağı olublar.

Aİİ rektoru, dosent Aqil Şirinov qonaqları salamlayaraq, onları ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. İnstitut haqqında geniş məlumat verən rektor bildirib ki, ali təhsil müəssisəsinin yeni binasında tələbələr üçün lazımi şərait yaradılıb. Qeyd edib ki, ölkənin yeganə ali dini təhsil verən müəssisəsi olan Azərbaycan İlahiyyat İnstitutunda təhsil tam ödənişsizdir. Bu il ilk dəfə ali təhsil müəssisəsinin məzun verəcəyini vurğulayan A.Şirinov nəzərə çatdırıb ki, ilahiyyat sahəsində əsas biliklərə yiyələnən, eyni zamanda, dünyəvi elmlərə yaxından bələd olan kadrlar hazırlamaq Aİİ-nin qarşısında duran məqsədlərdəndir.

Türkiyəli rektorlar səmimi qarşılanma və ali təhsil müəssisəsi haqqında geniş məlumat üçün təşəkkürlərini bildiriblər. Onlar təmsil etdikləri qurumlar haqqında məlumat verərək, əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduqlarını vurğulayıblar.



Görüşdə tərəflər arasında təhsil və elm sahəsində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi haqqında ətraflı fikir mübadiləsi aparılıb.

Tədbir birgə əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

# Pakistanlı qonaq İlahiyyat İnstitutunda olub

Pakistan Müsəlman İnstitutunun koordinatoru Asif Tanver Avan 26 may 2022-ci il tarixdə Azərbaycan İlahiyyat İnstitutunun qonağı olub.

Aİİ-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Mübariz Camalov qonaqları ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. M.Camalov İnstitutun fəaliyyəti, ölkədaxili və xarici əlaqələri, ölkəmizin multikultural və tolerantlıq ənənələrinin təbliğindəki rolu, gələcək hədəfləri barədə ətraflı bəhs edib. O, ali təhsil müəssisəsində mövcud ixtisaslar və təhsil pillələri haqqında məlumat verib. Qeyd edib ki, Aİİ-də bakalavirat, magistratura və doktorantura pillələri üzrə tədris aparılır.

Ətraflı məlumata görə minnətdarlığını ifadə edən Asif Tanveer Avan Pakistan Müsəlman İnstitutu və Azərbaycan–Pakistan qardaşlığı haqqında videorolik nümayiş etdirib.

Asif Tanveer Avan daha sonra təhsil və elmi-tədqiqat sahəsində ikitərəfli əlaqələrin qurulmasının mümkünlüyünü vurğulayıb.



Görüş birgə əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

# “Hədis” yarışması

Azərbaycan İlahiyyat İnstitutunun tələbələri arasında 27 may 2022-ci il tarixdə “Hədis” yarışması keçirilib.

Yarışmanın münsiflər heyətində İlahiyyat fakültəsinin müəllimləri – dosent Namiq Abuzərov, dosent Aslan Həbibov, fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov, fəlsəfə üzrə fəlsəfə doktoru Əmir Kahayev təmsil olunublar.

Tələbələr tərəfindən maraqla qarşılanan yarışmada qaliblər münsiflər heyətinin qiymətləndirməsi əsasında müəyyən olunub. Beləliklə, “Hədis” yarışmasında birinci yerə Abdulla Əliyev, ikinci yerə Fərid Qasımzadə, üçüncü yerə İsgəndər İsgəndərov layiq görülüblər.

Müsabiqənin sonunda qaliblər mükafatlandırılıb, iştirakçılara diplom və təşəkkürnamələr təqdim edilib.

Məlumat üçün bildiririk ki, ali təhsil müəssisəsində tələbələrin dünyagörüşlərinin formalaşdırılması, intellektual səviyyələrinin, elmi biliklərinin artırılması, gələcəkdə mütəxəssis kimi yetişmələri üçün müxtəlif yarışmalar, müsabiqələr keçirilir.

# ƏMƏKDAŞLIQ PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

Gürcüstanda səfərdə olan Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Azərbaycan İlahiyyat İnstitutunun və digər aidiyyəti dövlət qurumlarının nümayəndələri 7 iyun 2022-ci il tarixdə Tbilisi Ruhani Akademiyasında olublar.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında bütün sahələrdə, xüsusən də dini qurumlar arasında əməkdaşlıq, dini təhsil, dövlət-din münasibətləri barədə geniş fikir mübadiləsi aparılıb.

Tbilisi Ruhani Akademiyasının rektoru Giorgi Zviadadze Azərbaycan və Gürcüstan arasındakı əlaqələrdən danışıb, hər iki ölkənin dövlət və hökumət başçıları, dini liderləri arasındakı dostluq münasibətləri nəticəsində əlaqələrimizin daha da inkişaf etdiyini və möhkəmləndiyini bildirib.

Qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadzenin səyləri nəticəsində qədim tarixə malik olan münasibətlərimiz yeni müstəvidə inkişaf edib.

Bakıya səfərlərini xatırladan G.Zviadadze Azərbaycanın tolerantlıq nümunəsi olduğunu xüsusi vurğulayıb. Bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin öz vəsaiti hesabına sinaqoq inşa etdirməsi buna parlaq misaldır.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Sahib Nağıyev ölkəmizdə dövlət-din münasibətləri, dini təhsil, tolerantlıq mühiti barədə ətraflı məlumat verib. Dinindən, dilindən asılı olmayaraq bütün vətəndaşlarımızın Azərbaycanın 44 günlük Vətən müharibəsində qəhrəmancasına iştirak etdiyini vurğulayıb. Bunu tolerantlığın bariz nümunəsi adlandırıb. Bildirib ki, erməni vandalları işğal etdikləri ərazilərdəki məscidləri, eləcə də xristian dini abidələrini dağıdıb, viran qoyublar. Azərbaycan dövləti onların hamısının bərpası istiqamətində müəyyən tədbirlər görür.



Sonra Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov ölkəmizdə dini təriqətlərin tam azad və sərbəst fəaliyyət göstərmələri, onların hamısına dövlətimiz tərəfindən maliyyə yardımının ayrılması barədə məlumat verib.

Rektor, həmçinin İnstitutun fəaliyyəti, beynəlxalq əlaqələri, Azərbaycan İlahiyyat İnstitutu ilə Tbilisi Ruhani Akademiyası arasında təhsil sahəsində əməkdaşlığın perspektivləri barədə danışıb.

# Tələbə seminarı

Azərbaycan İlahiyyat İnstitutu Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə 31 may 2022-ci il tarixdə ali təhsil müəssisəsində seminar keçirilib.

“Tələbə seminarları” layihəsi çərçivəsində Aİİ İlahiyyat fakültəsinin IV kurs tələbəsi Orxan Abışlı “Bədən dili: şüuraltının sirləri” mövzusunda çıxış edib.

Mövzu haqqında geniş məlumat verən Orxan Abışlı şüur və şüuraltının fərqini izah edərək, onların həyatımıza təsiri barədə danışıb.

O.Abışlı daha sonra insanın duyğu və düşüncələrinin əks olunmasında bədən dilinin önəmini izah edib. Ünsiyyətdə əsas prinsiplər, ünsiyyət zonaları, salamlaşma növləri, bədən dilinin universallığı barədə ətraflı təqdimatla çıxış edib. İnsanı güclü və zəif göstərən hərəkətlər barədə fikirlərini ifadə edən Orxan Abışlı iştirakçılarla birlikdə onların bədən dilindəki xarakterik xüsusiyyətlərini müəyyən edib.



Məlumat üçün bildirək ki, Aİİ Tələbə Gənclər Təşkilatının “Tələbə seminarları” layihəsi çərçivəsində ali təhsil müəssisəsində təhsilalanlar tərəfindən seminarlar təşkil olunur. Məqsəd tələbələrin bilik səviyyələrinin, bacarıq imkanlarının nümayiş etdirilməsi, elmi fəaliyyətə maraqlarının artırılması, bu yöndə onların fəallığına nail olmaqdır.

Seminar müzakirələrlə davam edib.

# Aİİ-nin əməkdaşlıq əlaqələri genişlənir



Türkiyənin Muş Alparslan Universitetinin rektoru, professor Fethi Ahmet Polat Azərbaycan İlahiyyat İnstitutunun qonağı olub.

Aİİ rektoru Aqil Şirinov qonağı salamlayaraq, onu İnstitutda görməkdən məmnun olduğunu bildirib. İlahiyyat İnstitutunun fəaliyyəti haqqında məlumat verən rektor ali təhsil müəssisəsinin məqsəd və vəzifələri, hədəfləri haqqında ətraflı bəhs edib. Aİİ-nin beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəs-



sisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verdiyini diqqətə çatdırıb.

İnstitut rəhbəri, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda erməni vandallarının törətdikləri vəhşiliklər barədə məlumat verərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hazırda həmin ərazilərdə abadlaşdırma və yenidənqurma işləri həyata keçirilir.

Ali təhsil müəssisəsinin rektoru A.Şirinov, həmçinin 44 günlük Vətən müharibəsi zamanı göstərdikləri mənəvi dəstək üçün Türkiyə xalqına dərin minnətdarlığını bildirib.

Türkiyənin Muş Alparslan Universitetinin rektoru, professor Fethi Ahmet Polat təşəkkürünü bildirərək, İlahiyyat İnstitutu ilə əməkdaşlığın hər iki tərəf üçün faydalı və maraqlı olacağını diqqətə çatdırıb.

Daha sonra iki ali təhsil müəssisəsi arasında birgə elmi-pedaqoji və tədqiqat işlərinin aparılmasını nəzərdə tutan Əməkdaşlıq Protokolu imzalanıb.

Ali təhsil müəssisələri arasında əməkdaşlıq prinsiplərinə uyğun olaraq, elmi-pedaqoji, tədqiqat işlərinin aparılması sahəsində birgə fəaliyyətə əsaslanan Protokolu Aİİ-nin rektoru, dosent Aqil Şirinov və Muş Alparslan Universitetinin rektoru, professor Fethi Ahmet Polat imzalayıblar.

Protokolda hər iki ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması; birgə layihələrin reallaşdırılması; professor-müəllim heyəti və təhsilalanlar üçün qarşılıqlı akademik səfərlərin həyata keçirilməsi nəzərdə tutulur.

Sənəddə təcrübə və araşdırma, tədris prosesinin təşkili ilə bağlı biliklərin bölüşdürülməsi, universitetlərin alim və mütəxəssislərinin iştirakı ilə konfransların keçirilməsi, tələbə mübadiləsi və digər məsələlər yer alıb.

* * *

Yeddinci Beynəlxalq Sosial Elmlər Konqresində iştirak etmək üçün Bakıda səfərdə olan Türkiyənin bir sıra universitetlərinin nümayəndə heyəti Azərbaycan İlahiyyat İnstitutunun qonağı olub.





Yıldız Teknik Universiteti, Yozgat Bozok Universiteti, Bülent Ecevit Universiteti və Tekirdağ Namik Kemal Universitetinin nümayəndə heyətlərinə Azərbaycan İlahiyyat İnstitutu haqqında geniş məlumat verilib, təhsil müəssisəsinin məqsəd və vəzifələri, hədəfləri haqqında ətraflı bəhs edilib. Aİİ-nin beynəlxalq

əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verildiyi diqqətə çatdırılıb.

Qeyd edək ki, AİI xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verir. Ali təhsil müəssisəsinin hədəfi tədrisin müasir tələblər səviyyəsində qurulması məqsədilə dünyanın digər qabaqcıl universitetləri ilə yanaşı, Türkiyə ali məktəblərinin təcrübəsindən yararlanmaq, tələbə mübadiləsi aparmaq, həmçinin ali məktəblər arasında əlaqələri genişləndirməkdir.



* * *

Azərbaycan İlahiyyat İnstitutu ilə Türkiyənin Tekirdağ Namık Kemal Universiteti arasında "Mövlanə" mübadilə proqramı çərçivəsində Əməkdaşlıq Protokolu imzalanıb.

Protokolda hər iki ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması; birgə layihələrin reallaşdırılması; müəllim və tələbə heyətinin mübadiləsi, akademik səfərlərin həyata keçirilməsi nəzərdə tutulur.

Proqram çərçivəsində Azərbaycan İlahiyyat İnstitutunun ən yüksək göstəricilərə malik olan tələbələri Tekirdağ Namık Kemal Universitetində birsemestrlik təhsil ala biləcəklər. Həmin tələbələr əlavə olaraq, təhsil müddəti ərzində təqaüdlə təmin ediləcəklər.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu ötən dövr ərzində müxtəlif ölkələrin ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri yaradıb.

# "Geriyə baxma" kitabının təqdimat mərasimi

Azərbaycan İlahiyyat İnstitutu "Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyi və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Gəncə Regional Mədəniyyət İdarəsi ilə birgə 10 iyun 2022-ci il tarixdə Gəncə Şəhər Mərkəzi Kitabxanasında Xocalıda qətlə yetirilmiş 70 ahıl insanın faciəvi taleyindən bəhs edən "Geriyə baxma" (müəllif: Səriyyə Müslümqızı) kitabının təqdimat mərasimini keçirib.

Öncə Gəncə Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Fəridə Qədimova qonaqları salamlayıb. Azərbaycanlılara qarşı törədilən soyqırımı aktlarının dünyaya tanıdılmasının vacibliyinə toxunub. Kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

AİI Dinşünaslıq kafedrasının müdiri, dosent Anar Qafarov çıxışında təmsil etdiyi ali təhsil müəssisəsinin azərbaycanlılara qarşı törədilən soyqırımı aktlarının, Qarabağ həqiqətlərinin dünyaya tanıdılması və çatdırılması yönündə əlindən gələni əsirgəmədiyini mərasim iştirakçılarının nəzərinə çatdırıb. A.Qafarov vurğulayıb ki, Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunan "Geriyə baxma" kitabının da nəşr etdirilməsində əsas məqsəd də budur.




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Gəncə bölgəsi üzrə şöbə müdiri Həsən Məmmədov çıxış edərək, AİI-nin fəaliyyəti barədə danışıb. Bildirib ki, İnstitut gənclərin zəngindünyagörüşlü, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi üçün səy göstərir.

"Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyinin sədri Səriyyə Cəfərova müəllifi olduğu "Geriyə baxma" kitabı haqqında məlumat verib. Bildirib ki, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan İlahiyyat İnstitutu və "Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyi tərəfindən ərsəyə gələn kitab 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni vandalları tərəfindən törədilən Xocalı soyqırımından bəhs edir. Soyqırımı zamanı 613 azərbaycanlı vəhşicəsinə qətlə yetirilib ki, onlardan 70 nəfəri ahıldır. Bu insanların faciəvi həyatı kitabda öz əksini tapıb.

Tədbirdə Xocalı hadisələrindən bəhs edən sənədli film nümayiş etdirilib.

Daha sonra tədbirdə iştirak edən ictimaiyyət nümayəndələri çıxış edib, kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürlərini bildiriblər.

Məlumat üçün bildiririk ki, AİI Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar olaraq "Geriyə baxma" kitabını nəşr etdirib.

# Azərbaycanda dini təhsil – mövcud durum və vəzifələr

Azərbaycan Respublikası Milli Məclisi, Qafqaz Müsəlmanları İdarəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan İlahiyyat İnstitutunun birgə təşkilatçılığı ilə 13 iyun 2022-ci il tarixdə "Azərbaycanda dini təhsil – mövcud durum və vəzifələr" mövzusunda konfrans keçirilib.

Açılış nitqi ilə çıxış edən AİI rektoru Aqil Şirinov bildirib ki, müasir Azərbaycanda dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulması və inkişafı məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır: "Bu sahədə ulu öndər Heydər Əliyev tərəfindən yaradılan müdrik siyasi-mənəvi xətt Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmiz bütün sahələrdə olduğu kimi, din sahəsində də nümunəvi ölkəyə çevrilir".

Dini təhsil sahəsində problemlərə toxunan A.Şirinov qeyd edib ki, din spesifik istiqamət olduğu üçün bu sahədə ölkə gerçəklikləri nəzərə alınaraq tədris həyata keçirilməlidir. AİI rektoru ali təhsil müəssisənin fəaliyyəti haqqında məlumat verərək, qarşıda duran vəzifələr haqqında söhbət açıb.

Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli ilk olaraq tariximizin və taleyimizin ən şərəfli səhifəsi olan 44 günlük Vətən müharibəsində qələbəmizə diqqət çəkib. F.İbrahimli konfransın əhəmiyyətinə toxunaraq bildirib ki, din təhsili milli dəyərlərimiz, eləcə də ölkəmizin tolerant mühiti nəzərə alınmaqla həyata keçirilməlidir. Milli Məclis sədrinin müavini xalqımızın dini qadağaların mövcud olduğu sovet dövründə belə dini inanclarını qoruduğunu konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransın əhəmiyyətinə toxunaraq, dövlət-din münasibətləri modeli, eləcə də dini ali və orta təhsil mövzusunda silsilə tədbirlərin keçirilməsini vacib hesab etdiyini bildirib.

Komitə sədri qeyd edib ki, əvvəllər məscid yanında fəaliyyət göstərən mədrəsələrdə din təhsili ilə yanaşı, dünyəvi təhsil də tədris edilirdi. Müasir dövrdə Azərbaycanda dini təhsilin əhəmiyyətinə toxunan M.Qurbanlı orta məktəblərdə şagirdlərin dinlərlə bağlı müəyyən biliklərə yiyələnmələrinin vacibliyini də vurğulayıb: "Müasir dövrdə dini təhsil sahəsində əsas vəzifələrdən biri də gənclərin bütün dinlər haqqında ətraflı məlumatlarının olmasıdır. Dindən istifadə edən radikal və ekstremist qrupların təsiri altına düşməmələri üçün gənclərə dini biliklər düzgün öyrədilməli, dini ali və orta təhsil yüksək səviyyədə tədris olunmalıdır".

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, f.f.d. Fuad Nurullayev "Azərbaycanda dini təhsil – mövcud durum və vəzifələr" mövzusuna toxunaraq, gənc nəslin tərbiyəsinin ailənin başlıca funksiyalarından biri olduğunu vurğulayıb. Qeyd edib ki, bu məsələ valideynlərin ən mühüm vəzifələrindən biridir. F.Nurullayev, həmçinin ailədə əxlaqi dəyərlərin düzgün təbliğ olunmasının vacibliyi məsələsinə də toxunub.

Millət vəkili Anar İsgəndərov bildirib ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa et-











dikdən sonra, xalqımız yenidən milli-mənəvi dəyərlərinin sahibi kimi çıxış etməyə başlayıb. Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlət-din münasibətlərinin tənzimlənməsinin və inkişafının əsası qoyulub. Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətinə uğurlar arzulayan Anar İsgəndərov ali təhsil müəssisəsinin tələbələrinin ölkəmizdə dövlət-din münasibətlərinin inkişafında, eyni zamanda, milli-mənəvi dəyərlərimizin qorunmasında böyük rolu olacağını diqqətə çatdırıb.

Millət vəkili Ceyhun Məmmədov Azərbaycanın dünyada unikal məkan olaraq tanındığını, tarixən ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin sülh və anlaşma şəraitində yaşadıqlarını bildirib. Qeyd edib ki, ulu öndər Heydər Əliyevin din sahəsində atdığı ən böyük addımlardan biri 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncamı olub. C.Məmmədov vurğulayıb ki, ümummilli lider Heydər Əliyev siyasətinin layiqli davamçısı cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması dövlətin din sahəsinə göstərdiyi diqqətin bariz nümunəsidir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, i.f.d. Mehman İsmayılov dinin ideoloji məsələ olduğunu vurğulayaraq, dinin tədrisinin vacibliyini nəzərə çatdırıb. Həmçinin Azərbaycan İlahiyyat İnstitutunun tələbələrinə qarşılarında duran önəmli vəzifələrində uğurlar arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, f.e.d. Könül Bünyadzadə fəlsəfə ilə ilahiyyat elmlərinin qarşılıqlı öyrənilməsinin əhəmiyyətini vurğulayıb. Dini təhsilin düşüncənin çərçivələrini genişləndirdiyini, insanın təkcə mənəvi deyil, həm də məntiqi olaraq dinə yanaşdığını vurğulayıb.

Aİİ İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova orta məktəblərdə tədris olunan "Həyat bilgisi" dərsliklərində dini biliklərin statistikasını göstərərək, ziddiyyətli faktlara və təkrarlara rast gəlindiyini vurğulayıb. Həmçinin məlumatların dinlərlə əlaqəli sistemli şəkildə təqdim olunmamasına da diqqət çəkib.







E.Əzizova daha sonra kvantitativ məzmun analizi və kvalitativ mövzu analizi metodlarından istifadə olunaraq, "Həyat bilgisi" dərsliklərində dinə baxışı əks etdirən üslub, məzmun və vizuallar amillərini dəyərləndirib. Gələcəkdə belə dərsliklərin yazılması zamanı uşaqların yaş psixologiyasının nəzərə alınmasının vacib olduğunu nəzərə çatdırıb. Məruzəçi "Həyat bilgisi" dərsliklərində, ümumilikdə, dinin necə təmsil olunduğu, onun hansı anlayışlarla əlaqələndirilərək təqdim edildiyi, dini biliklər aşılanan zamanı hansı üslubdan yararlanıldığı, Azərbaycanın özünəməxsus dini demoqrafiyasının hansı səviyyədə diqqətə alındığı, dini tolerantlığın Azərbaycan modelinin necə əks olunduğu məsələlərinə də aydınlıq gətirib.

Aİİ İlahiyyat fakültəsinin dekan müavini Asəf Qənbərov din təhsilinin əhəmiyyətini vurğulayaraq, cəmiyyətin dini baxımdan maarifləndirilməsi, din təhsilinin metodologiyası baxımından onun tədrisinin həyata keçirilməsi və din təhsilinin məzmun baxımından hansı mövzuları əhatə etməsi barədə təqdimatla ətraflı çıxış edib. A.Qənbərov bundan başqa, din təhsilində metodoloji yanaşmalara toxunaraq, dünya təcrübəsində din dərsinin statusu barədə nümunələr göstərib. Azərbaycanda din təhsili metodologiyası və dövlət-din münasibətlərində onun hansı yollarla tənzimləndiyi barədə fikirlərini bölüşüb.

Azərbaycan İlahiyyat İnstitutu
Bülleten
№ 5
yanvar-iyun
2022






















**Təsisçi:**
Azərbaycan
İlahiyyat İnstitutu

**Baş redaktor:**
Aqil Şirinov

**Redaksiya şurası:**
Mirniyaz Mürsəlov
Ayşən Aslanova
Elnarə Ağaoğlu
Rəna Həsrətova

**Məsul redaktor:**
Elnarə Ağaoğlu

**Texniki redaktor:**
Hilal Ağamoğlanov

**Foto:**
Ayaz Mikayıl-zadə

**Ünvan:**
Məhəmməd Naxçıvani, 29

**Əlaqə nömrəsi:**
(+994) 12 436 77 66

Tiraj: 500

**AVE Print MMC-də**
çap olunub

ait.edu.az
bulleten@ait.edu.az
ilahiyyatinstitutu
ilahiyyatinstitutu